


# MƏİŞƏT ZORAKILIĞI VƏ CİNSİ ZORAKILIQ TÖRƏTMİŞ ŞƏXSLƏR ÜÇÜN PROQRAMLAR: İSTANBUL KONVENSİYASININ 16-CI MADDƏSİ




Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyasına dair sənədlər toplusu

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# MƏİŞƏT ZORAKILIĞI VƏ CİNSİ ZORAKILIQ TÖRƏTMİŞ ŞƏXSLƏR ÜÇÜN PROQRAMLAR: İSTANBUL KONVENSİYASININ 16-CI MADDƏSİ

## Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyasına dair sənədlər toplusu

**Marianna Hester,**
Bristol Universitetinin (Birləşmiş Krallıq) Siyasi Tədqiqatlar Məktəbinin Gender Zorakılığı və Beynəlxalq Siyasət üzrə professoru
və
**Sara-Ceyn Lilli,**
Bristol Universitetinin (Birləşmiş Krallıq) elmi işçisi
tərəfindən tərtib edilmişdir.

Avropa Şurası

*Bu sənəddə ifadə edilən fikirlərə görə müəllif cavabdehlik daşıyır və onlar Avropa Şurasının rəsmi mövqeyini əks etdirməyə bilər.*

Sənədin bir hissəsinin ya bütövlükdə surətlərinin çoxaldılması və yaxud tərcüməsi ilə əlaqədar olan bütün müraciətlər Kommunikasiya İdarəsinə (F-67075 Strasburq Cedex və ya publishing@coe.int) ünvanlanmalıdır. Bu sənədlə bağlı olan digər yazışmalar Demokratiya üzrə Baş Direktorluğun Gender Bərabərliyi Bölümünə ünvanlanmalıdır.

Bu sənəddə istinad edilmiş bütün URL linklərə ən son giriş tarixi 4 Aprel 2014-cü ildir.

Üz qabığındakı şəkil: Shutterstock, Inc. – dreamerve

Tərtibat: 360Marcom

© Avropa Şurası, 2021

# Mündəricat


**GİRİŞ** **5**

**16-CI MADDƏNİN ƏHATƏ DAİRƏSİ** **6**

**AVROPADA ZORAKILIQ TÖRƏTMİŞ ŞƏXSLƏR ÜÇÜN PROQRAMLARA ÜMUMİ BAXIŞ** **8**

**MƏİŞƏT ZORAKILIĞI TÖRƏTMİŞ ŞƏXSLƏR ÜÇÜN PROQRAMLAR** **10**

- Proqramın effektivlik xüsusiyyəti 12
- Könüllü və ya məcburi iştirak 13
- Zorakılıq törətmiş şəxslər və uşaqlar 14
- Müvəffəqiyyətin müəyyən edilməsi 15
- Minimum təcrübə standartları 16
- Məişət zorakılığı törətmiş şəxslərlə işin əsas prinsipləri 17
- Məişət zorakılığı törətmiş şəxslər üçün proqramların nümunəvi tədris planları 20

**CİNSİ XARAKTERLİ CİNAYƏT TÖRƏTMİŞ ŞƏXLƏR ÜÇÜN MÜALİCƏ PROQRAMLARI** **21**

- Proqramın effektivlik xüsusiyyəti 21
- Minimum standartlar 23
- Cinsi xarakterli cinayət törətmiş şəxslər üçün müalicə proqramlarının əsas prinsipləri 23
- Cinsi xarakterli cinayət törətmiş şəxslər üçün proqramların nümunəvi tədris planları 24

**MƏİŞƏT ZORAKILIĞI TÖRƏTMİŞ VƏ CİNSİ XARAKTERLİ CİNAYƏT TÖRƏTMİŞ ŞƏXSLƏR ÜÇÜN MÜALİCƏ PROQRAMLARI ÜZRƏ QABAQCIL TƏCRÜBƏ NÜMUNƏLƏRİ** **24**

**NƏTİCƏ** **33**

**ZORAKILIQ TÖRƏTMİŞ ŞƏXSLƏR ÜÇÜN PROQRAMLARIN SİYAHISI** **34**

**ƏSAS MƏNBƏLƏR** **38**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT** **40**

# Giriş

Zorakılıq törətmiş şəxslər üçün proqramlar qadınlara qarşı zorakılığın qarşısının alınması və ona qarşı mübarizə üzrə kompleks və hərtərəfli yanaşmanın vacib elementləridir və bu da öz növbəsində hərtərəfli milli siyasət və ya strategiyanın bir hissəsi olmalıdır.[1] Məişət zorakılığı və cinsi zorakılıq törətmiş kişilərlə iş gender iyerarxiyasının, gender əsaslı zorakılığın və gender ayrı-seçkiliyinin, eləcə də digər şəxsi və struktur zorakılığın və ayrı-seçkilik formalarının ləğvi istiqamətində daha geniş bir mədəni və siyasi dəyişiklik prosesinə yardımçı ola bilər.[2] Qanunpozucularının törətdikləri zorakılıqlara görə məsuliyyətini qəbul etməyə vadar edilməsini rəhbər tutan zorakılıq törətmiş şəxslər üçün proqramlar qadınlara qarşı zorakılığa dözən, onu qəbul edən və ya açıq şəkildə təsdiqləyən inanc sistemlərinin aradan qaldırılması üçün çox vacibdir. Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası (bundan sonra - İstanbul Konvensiyası) bu cür proqramları qadınlara qarşı zorakılığın qarşısının alınması üçün daha geniş bir strategiyaya daxil edir, eləcə də üzv dövlətlərdən məişət zorakılığı və cinsi zorakılıq törətmiş şəxslərə qeyri-zorakı davranış aşılamağa və onların təkrar cinayət törətmələrinin qarşısını almağa yönəlmiş proqramlara investisiya qoymağı tələb edir (Maddə 16).

Bu sənəd siyasətçilər və təcrübəçi mütəxəssislər üçün "perspektivli" sayılan təcrübə ilə yanaşı, dəyərləndirilmiş təcrübənin faktiki verilənlərinə əsaslanan (əgər mövcuddursa) lazımi müdaxilə proqramlarını hazırlamaq üzrə praktiki məsləhətlər verməyə yönəlib. Bu sənəd qanun pozuntusuna yol açan halları aradan qaldıraraq zorakılıq törətmiş şəxslər üçün proqramlara investisiya qoymağın məişət və cinsi zorakılığın nə cür qarşısını almağa kömək edə biləcəyini izah edir və hər iki növ proqram üçün vacib elementlərin yoxlama siyahısı ilə tamamlanır.

1. Bu sənəddə "zorakılıq törətmiş şəxslər və ya qanun pozucuları" ifadəsindən təqsirləndirilən şəxs qismində cəlb edilməsindən, ittiham və məhkum olunmasından asılı olmayaraq, tərəf müqabilini və ya keçmiş tərəf müqabilni idarə etmək üçün qəsdən zorakı və təhqiramiz davranışlardan istifadə edən kişiləri izah etmək üçün istifadə olunur.
2. Avropada məişət zorakılığı törətmiş şəxslərlə iş – Dafna II Layihəsi 2006-2008. www.work-with-perpetrators.eu.

# 16-cı maddənin əhatə dairəsi

Qadına qarşı fiziki, psixoloji və ya cinsi zorakılıq tətbiq edən ayrı-ayrı kişilərə reaksiya yaratmaq istəyindən qaynaqlanan İstanbul Konvensiyasının 16-cı maddəsi iştirakçı dövlətlərdən iki növ proqram yaratmağı və ya dəstəkləməyi tələb edir: məişət zorakılığı törətmiş şəxslər üçün (16-cı maddənin 1-ci bəndi) və cinsi xarakterli cinayət əməlləri törətmiş şəxslər üçün (16-cı maddənin 2-ci bəndi). Xüsusilə, 16-cı maddədə bu proqramlar tərəfindən qurbanların təhlükəsizliyinin, onlara yardımın təmin edilməsi və əməkdaşlıq üçün qadın sığınacaqları və ya böhran mərkəzləri kimi peşəkar yardım xidmətlərinə müraciət edilməsinin tələb olunduğu söylənilir.

**16-cı maddə - Profilaktik müdaxilələr və müalicə proqramları**

(1) Tərəflər, gələcəkdə zorakılığın qarşısını almaq və zorakı davranış formalarını dəyişmək baxımından məişət zorakılığı törədənlərə şəxslərarası münasibətlərdə qeyri-zorakı davranış aşılamağa yönəlmiş proqramlar hazırlamaq və ya bu cür proqramların hazırlanmasına kömək etmək üçün zəruri qanunvericilik tədbirləri və ya digər tədbirlər görürlər.

(2) Tərəflər zorakılıq əməlləri, xüsusilə də cinsi zəmində cinayət əməlləri törətmiş şəxslərin təkrar cinayət törətmələrinin qarşısını almağa yönəlmiş proqramlar işləyib hazırlamaq və ya onların hazırlanmasına dəstək olmaq üçün zəruri qanunvericilik tədbirləri və ya digər tədbirlər görürlər.

(3) 1-ci və 2-ci bəndlərdə göstərilən tədbirləri həyata keçirərkən Tərəflər zərərçəkmişlərin təhlükəsizliyinin, onlara yardımın və onların insan hüquqlarının diqqət mərkəzində dayanmasını və tələb olunarsa, bu proqramların zərərçəkmişlər üçün peşəkar yardım xidmətləri ilə sıx əlaqədə hazırlanıb həyata keçirilməsini təmin edirlər.

Konvensiyaya əlavə edilmiş izahlı hesabatda məişət zorakılığına müdaxilə proqramlarının qabaqcıl təcrübəyə və cinayətkarlarla iş üzrə ən təsirli üsullar haqqında tədqiqat göstəricilərinə əsaslanması qeyd edilir. Proqramlar zorakılıq törətmiş şəxsləri törətdikləri əməllərə görə məsuliyyət daşımağa, qadınlarla bağlı davranışlarını və inanclarını aydınlaşdırmağa təşviq etməlidir. Belə müdaxilə

üçün təcrübəli və ixtisaslaşmış mütəxəssislər lazımdır. Həmin mütəxəssislər məişət zorakılığının psixologiyası və təbiəti ilə bağlı biliklərlə yanaşı, bu cür proqramlara qatılan çox sayda kişi ilə işləmək üçün kifayət qədər mədəni və dil bacarıqlarına malik olmalıdırlar.

Bundan əlavə, bu proqramların təcrid olunmuş forrmada deyil, əksinə qadınlara dəstək xidmətləri, hüquq-mühafizə orqanları, məhkəmə orqanları, probasiya xidmətləri və uşaqların müdafiəsi xidmətləri və ya lazım olduqda sosial yardım xidmətləri ilə qarşılıqlı fəaliyyət göstərməsi vacibdir. Bu proqramlarda iştirak məhkəmə qərarı ilə və ya könüllü ola bilər. Hər bir halda bu, qurbanın zorakılıq törətmiş şəxslə birlikdə yaşama və ya ayrılma qərarına təsir göstərə bilər və ya qurbana saxta təhlükəsizlik hissi verə bilər. Beləliklə, qurbanların insan hüquqları da daxil olmaqla tələbatlarına və təhlükəsizliyinə üstünlük verilməlidir.

Cinsi xarakterli cinayət törətmiş şəxslər üçün proqramlara gəldikdə, 16-cı maddə cinsi zorakılıq və zorlama törətmiş şəxslər üçün müalicə proqramları yaratmaq və ya dəstəkləmək öhdəliklərini ehtiva edir. Bunlar təkrar cinayət törədilməsini minimuma endirmək məqsədi ilə cəzaçəkmə müəssisələrində və onlardan kənarda cinsi xarakterli cinayət törətmiş şəxslərin müalicəsi üçün hazırlanmış xüsusi proqramlardır. Avropa Şurasına üzv ölkələrdə bir çox fərqli model və yanaşma mövcuddur. İstanbul Konvensiyası tərəflərə bu cür proqramların necə aparılacağına dair çeviklik təmin etməsinə baxmayaraq, əsas və son məqsəd cinayətlərin təkrarən törədilməsinin qarşısının alınması və cinayətkarların cəmiyyətə uğurlu şəkildə yenidən inteqrasiyası olmalıdır.

# Avropada zorakılıq törətmiş şəxslər üçün proqramlara ümumi baxış

Hal-hazırda Avropada tətbiq olunan zorakılıq törətmiş şəxslər üçün müxtəlif müalicə proqramları mövcuddur.

Bu proqramlara aiddir:

- çəzaçəkmə müəssisələrində müalicə proqramları (həm cinsi zorakılığa meyilli kişilər üçün, həm də məişət zorakılığı törətmiş şəxslər üçün);
- şərti məhkum edilmiş şəxslər üçün davranış dəyişikliyi proqramları (əsasən məişət zorakılığı törətmiş şəxslər üçün nəzərdə tutulan və ictimai birliklər tərəfindən həyata keçirilən);[3]
- ədalət mühakiməsi sistemi ilə əlaqəli qeyri-hökumət təşkilatları (QHT) və digər təşkilatlar tərəfindən həyata keçirilən cəmiyyət səviyyəsində davranış və münasibət dəyişdirmə proqramları (əsasən məişət zorakılığı törətmiş şəxslər üçün, məsələn ədalət mühakiməsi sistemindən göndərişin cinayət işi üzrə ittihamın ləğv edilməsi üçün şərt ola biləcəyi zaman);
- qeyri-hökumət təşkilatları və ədalət mühakiməsi sistemi xaricindəki digər qurumlar tərəfindən həyata keçirilən cəmiyyət səviyyəsində davranış və

3. Qadınlara qarşı məişət zorakılığı törətmiş kişilərin əksəriyyəti heç vaxt mühakimə edilmədiyindən, bəzi üzv dövlətlərdə bu proqramlar məsuliyyətə cəlb olunmayan və ya mühakimə edilməyən kişilər üçün də açıqdır ki, bu da vacib bir profilaktik strategiya hesab oluna bilər.

münasibət dəyişdirmə proqramları (əsasən məişət zorakılığı törətmiş şəxslər üçün).

Məişət zorakılığı və cinsi xarakterli cinayət törətmiş şəxslər üçün proqramlar, bir qayda olaraq ayrı-ayrılıqda həyata keçirilir. Bununla belə, bu tip proqramlar arasında qadınlara qarşı müxtəlif zorakılıq formalarına qarşı mübarizə praktikasına uyğun olan mühüm qarşılıqlı əlaqə mövcuddur. Son sorğuda 134 zorakılıq törətmiş şəxslər üçün proqramın 43-nün və ya 32,1%-nin cinsi xarakterli cinayət törətmiş şəxslər üçün də tədbirlər nəzərdə tutduğu müəyyən olunmuşdur.[4] 2007-ci ildə aparılmış əvvəlki bir sorğuda 170 proqramdan 48-nin və ya 28,2 %-nin cinsi zorakılıqla bağlı məsələləri də əhatə etdiyi göstərilmişdir.[5]

4. Geldschläger H., Ginés O., Nax D. & Ponce A. (2014), Zorakılıq törətmiş şəxslər üçün Avropa proqramlarının nəticələrinin qiymətləndirilməsi: icmal, Dafna III Layihəsinin təsiri haqqında nəşr olunmamış sənəd: Zorakılıq törətmiş şəxslər üçün Avropa proqramlarının qiymətləndirilməsi.
5. Dafna II layihəsi "WWP (Work with Perpetrators-Qanunpozucuları ilə iş) - Avropada məişət zorakılığı törətmiş şəxslərlə iş". Sorğu nəticələri ilə burada tanış olmaq mümkündür: http://archive.work-with-perpetrators.eu/en/overview.php.

# Məişət zorakılığı törətmiş şəxslər üçün proqramlar

1980-ci illərdən etibarən, qadınların təhlükəsizliyinin təmin edilməsinə və məişət zorakılığının qarşısının alınmasına əsaslanan cinayətkarlarla iş tədricən daha çox məişət zorakılığı üzrə yardım xidmətlərinin əsas elementi kimi tanınmağa başladı. ABŞ-da geniş yayılmış məişət zorakılığına qarşı mübarizə üzrə Dulut modelinin[6] əsas komponentini zorakılıq törətmiş şəxslərə "münasibət" təşkil edir. Hakimiyyət və nəzarət nəzəriyyəsinə əsaslanan müdaxilə hər bir zorakılıq törətmiş şəxsin zorakı davranışının niyyət və mənbəyini araşdıraraq, kişi qanunpozucularının zorakılığa qarşı münasibətlərini dəyişmə prosesinə kömək etmək üçün hazırlanmışdır.

Məişət zorakılığı törətmiş şəxslər üçün mövcud proqramların əksəriyyəti qanunpozucularının müalicəsinə koqnitiv-davranış və ya psixoloji-pedaqoji yanaşma tətbiq edir və bir qayda olaraq ədalət mühakiməsi sahəsinə daxildir (probasiya və ya penitensiar xidmət çərçivəsində təklif olunan), qalan hissəsi isə cəmiyyətə aid edilir. Bir çox proqramlar koqnitiv-davranış və digər psixoterapevtik müdaxilə ehtiva edən kompleks üsullardan istifadə edir ki, bu üsullar məlumatlandırma və maarifləndirmə tədbirləri ilə müşayiət olunur və bu zaman adətən özünün gender təbiəti və dinamikası üzrə tədqiqat məlumatlarına əsaslanan məişət zorakılığı anlayışından istifadə edilir. Digər proqramlar daha çox psixodinamik yanaşmalara əsaslanmalarına baxmayaraq, Dulut yanaşmasına bənzər müdaxilələri qurmağa meyllidirlər.

6. 1980-ci ildə hazırlanmış Dulut Modeli (DAIP (Domestic Abuse Intervention Project) – Məişət Zorakılığına Qarşı Mübarizə Layihəsi) – dəyişmə imkanı yaradan müdaxilə yolu ilə ailədə zorakı münasibətə görə daima məsuliyyətə cəlb edərək məişət zorakılığına qarşı mübarizədə koordinasiyalı yanaşmanı, qadınların və uşaqların təhlükəsizliyini ön plana çıxararaq, qurbanları qorumaq üçün təşkilatların birlikdə çalışmasını tələb edir. http://theduluthmodel.org/about ünvanına bax.

Müdaxilənin əsas elementi kişilərin zorakı davranışlarına görə məsuliyyət daşımaları və bu cür davranışların təhlili prinsipinə əsaslanan davranış dəyişikliyi "müalicə"sini həyata keçirməkdən ibarətdir. Proqramlar qanunpozucularının zorakı davranışlarını və şiddət tətbiq etməsində aktiv rollarını anlamalarına kömək etmək üçün çox vaxt qrup və fərdi işlərin birləşməsi ilə həyata keçirilir. Zorakılıq törətmiş şəxslərlə birlikdə onların tərəf müqabillərinə (və uşaqlarına) təsiri nöqteyi-nəzərindən, zorakı davranışın nəticələrini araşdıran proqramlar empatiya, məsuliyyət hissi və dəyişmə motivasiyasının artırılmasına, eləcə də qadınlara qarşı cinsi stereotiplərin və düşmənçiliyin aradan qaldırılmasına istiqamətlənmişdir. Bu cür yanaşma qadınlara qarşı düşmənçiliyə və empatiya və hörmət hissinin ümumi çatışmazlığına səbəb olan "kişi mənliyi" və "emosional və koqnitiv çatışmazlıq" kimi problemlərə yönələrək, cinsi zorakılığa aparan "yolları" dağıtmağa çalışır. Zorakılıq törətmiş şəxslər üçün proqramlar asılılığın müalicəsi proqramları deyil, lakin onlardan bəziləri cinsi istila və nəzarətə səbəb ola bilən "stimullardan sui-istifadə" (narkotik vasitələr, alkoqol), "məhrəmlik çatışmazlığı" və ya "şəxssiz cinsi sosiallaşma"nın aradan qaldırılmasına yönəlmiş komponentləri ehtiva edə bilər.

Məişət zorakılığı törətmiş şəxslər üçün mövcud proqramlarda iştirakın üç yolu vardır:

► iştirakın könüllü olaraq həyata keçirildiyi proqramlar (könüllü müraciət ya "böhran" anı ilə, məsələn, tərəf müqabilinin ayrıldığı və ya onları tərk etməklə hədələdiyi və ya uşaqlarla ünsiyyətdə problem yaşandığı zaman edilə bilər;[7] sosial xidmətlər, ümumi təcrübə həkimləri və ya digər səhiyyə xidmətləri kimi qurumlardan təzyiq və ya onlarla əlaqə zamanı; və ya səmimi dəyişmək istəyi olduqda);

► cinayət təqibindən sonra ədalət mühakiməsi sistemi çərçivəsində fəaliyyət göstərən proqramlar – cəzaçəkmə müəssisələrində və ya onlardan kənarda (iştirak məcburi və/və ya könüllü ola bilər);

► ədalət mühakiməsi sistemi vasitəsilə əldə edilə bilən cəmiyyət əsaslı proqramlar (cinayət təqibi olmadığı təqdirdə).

*"Həyat yoldaşıma əl qaldırdım ... mübahisələrimiz var, amma bundan sonra bir daha bunu etmək istəmədim, o bacısının yanına getdi, mən isə həkimə yaxınlaşıb kömək üçün hara müraciət edəcəyimi soruşdum." (Wade)*[8]

---

7. Hester M. və başqaları (2006), Məişət zorakılığı törətmiş şəxslər: Erkən müdaxilə zərurətinin müəyyənləşdirilməsi, Northern Rock Fondu və Baş Ofis, London, Birləşmiş Krallıq.
8. Yenə orada, s. 12.

## Proqramın effektivlik xüsusiyyəti

Məişət zorakılığı törətmiş şəxslər üçün proqramlarla bağlı mövcud Avropa tədqiqatlarının müqayisəli təhlili fərqli müraciət forması seçən və iştirak üçün fərqli motivləri olan müxtəlif qanunpozucularına yönəldilmiş müxtəlif növ proqramlar üçün fərqli meyarlar əsasında müxtəlif qiymətləndirmə növlərinin mövcudluğu səbəbindən çətin olur. Qanunpozucularının davranışlarının fərdi səviyyədə həll edilməməsi cəmiyyət üçün son dərəcə baha başa gələcək. Bununla belə, xeyirdən daha çox zərər vermə kimi potensial riskin qarşısını almaq üçün proqramlar çox diqqətli şəkildə tərtib edilməlidir. Bu o deməkdir ki, təcrübə üçün dəlillər müəyyənləşdirilərkən mövcud qiymətləndirmələrin məhdudluğuna, yaxşı və ya perspektivli təcrübənin təklif edilə biləcəyi nəticələrə diqqət yetirilməlidir.

Bir çox proqramlarda müxtəlif komponentlərin təsirlərini müəyyənləşdirmək baxımından etibarlı bir qiymətləndirməni çətinləşdirən müalicə kombinasiyası istifadə olunduğundan bu günə qədər Avropa və Şimali Amerikada aparılan tədqiqatlar hansı müalicə yanaşmasının digərlərindən daha effektiv olduğunu müəyyənləşdirə bilməmişdir.[9] Lakin zorakılıq törətmiş şəxslər üçün proqramlarda nəyin "effektiv" olduğunu dəqiq müəyyən etmək çətin olmasına baxmayaraq, tədqiqatlar müxtəlif müsbət nəticələr göstərmişdir.[10] Əldə olunan məlumatlar bu cür proqramların qadınlara qarşı zorakılığın və/və ya zorakılıq hallarının azaldılması nöqteyi-nəzərindən mötədil şəkildə uğurlu ola biləcəyini [11] və belə müalicə proqramlarını tamamlayan qanunpozucularının sayının artması qanun pozuntularının ümumi sayını azalda biləcəyini göstərir.[12] Beləliklə, bu proqramlar həbs və cinayət sanksiyalarından əlavə məişət zorakılığına qarşı mübarizəyə mühüm töhfə verə bilər.[13]

---

9. Akoensi T. və başqaları (2012), "Domestic violence perpetrator programs in Europe, Part II: A systematic review of the state of evidence", International Journal of Offender Therapy and Comparative Criminology, cild. 57 (10), s. 1217.
10. Yenə orada, s. 1216.
11. Gondolf E. (2002), "Batterer intervention system: issues, outcomes and recommendations", SAGE nəşriyyatı, Thousand Oaks, CA; Dobash R.E., Dobash R.P (2000), "Evaluating criminal justice interventions for domestic violence", Crime and Delinquency, Aprel 2000, cild 46, № 2, s. 252-70; Saunders D.G. (2008), "Group interventions for men who batter: a summary of program descriptions and research", Violence and Victims 2008, cild 23, № 2, s. 156-72.
12. Mayer R. (2004), To BIP (Batterers' Intervention Programs), or not to BIP? 8 iyun 2004-cü il tarixində York/Springveyldə (Men ştatı) Məişət Zorakılığı Koordinasiya Layihəsinin Məşvərət Şurasına təqdim edilmişdir; həmçinin Kemberlend dairəsində Zorakılıqla Mübarizə üzrə Məşvərət Şurasına (Men ştatı) təqdim edilmişdir – Munro T. (2011), Məişət Zorakılığı haqqında 5 saylı Hesabat: Şərti Xəbərdarlıq və Kişi Qanunpozucuları üçün Proqramlar. Hesabat Amerika-Britaniya Fulbrayt Komissiyası tərəfindən verilən 2010-2011 Polis Tədqiqatları üçün Fulbrayt Təqaüd Proqramı çərçivəsində hazırlanmışdır.
13. Dobash R.E., Dobash R.P. (2000), istinad olunan mənbə (qeyd 11)

## Könüllü və ya məcburi iştirak

Qanunpozucuları üçün bütün proqramların ortaq problemi yüksək tükənmə səviyyəsidir. Çox az sayda məlumatlar proqramı tamamlayanların dəyişmək üçün ən güclü motivasiyaya sahib olduğunu göstərir, lakin şəxsin qanunpozucuları üçün proqramda iştirak etməsinin səbəbləri çox fərqli ola və həm müraciət mənbəyi, həm də motivasiya mənbəyi proqramın tamamlanmasına təsir göstərə bilər. Könüllü (sərbəst) surətdə müraciət edən şəxslərdə dəyişmək üçün daha çox motivasiya olmasına baxmayaraq, araşdırmalar məhkəmə qərarı ilə proqrama qatılan, yəni iştirak etmədiyi və ya qeyri-aktiv olduğu halda məhkəmə tərəfindən "dərhal və müvafiq" sanksiyalarla cəzalandırılan şəxslərin proqramı tamamladıqdan sonra təkrar cinayət törətmə ehtimalının az olmasını göstərir ki, bu da müsbət nəticə kimi qiymətləndirilə bilər.[14] Lakin bu cür təsdiq edilmiş proqramlar yalnız ittiham olunan və ya məhkum edilmiş azlıq təşkil edən qanunpozucuları üçün təsirlidir və cinayət təqibindən yayınmış cinayətkarlar üçün effektiv deyil (beləliklə, bu aysberqin yalnız zirvəsidir).

Övladları ilə münasibət saxlamaq və ya tərəf müqabilini itirmək qorxusu (zahiri motivasiya) kimi səbəblərdən könüllü surətdə proqramlarda iştirak etmək üçün müraciət edən qanunpozucuları səmimi dəyişmək arzusu ilə motivasiya oluna bilmirlər. Əksinə, bu səbəblər şəxsin proqramda uzun müddət ərzində iştirak etmək ehtimalını artira bilər. Mövcud məlumatlar şəxsin proqramda daha uzun müddət iştirak edəcəyi təqdirdə, müalicə üçün motivasiya amillərinin zaman keçdikcə dəyişə biləcəyini və onun davranışını dəyişdirmək və ya idarə etmək üçün daha çox daxili motivasiyanın inkişafı ehtimalının olduğunu göstərir.[15] Beləliklə, mütəxəssislər qanunpozucularının mümkün qədər geniş qrupunu (mühakimə olunan və ya mühakimə olunmayan, məcburi və ya könüllü) cəlb etmək üçün həm könüllü, həm də məhkəmə tərəfindən təsdiqlənmiş proqramların zəruriliyini qəbul edirlər.[16]

> *"Həyat yoldaşım dedi: 'Kifayətdir. Sən bu problemin həll yolunu tapacaqsan, əks halda yollarımız ayrılacaq'. Mən övladlarımı və həyat yoldaşımı itirmək istəmirdim... Mən polis tərəfindən tutuldum, mənə öz pivəxanama girişə qadağa qoyuldu və məhz bu səbəbdən mən dəyişmək qərarına gəldim." (Noel)*[17]

---

14. Munro T. (2011), istinad olunan mənbə (qeyd 12)
15. Stanley N. və başqaları (2011), Dəyişmək üçün güc: Məişət zorakılığı törətmiş şəxslər üçün yeni təşəbbüsün dəyərləndirmə hesabatı, Mərkəzi Lancaşir Universiteti, Preston
16. Kelly L. (2008), "Qadınlara qarşı zorakılıqla mübarizə: dəstək xidmətləri üçün minimum standartlar", Avropa Şurası, Strasburq, s. 19.
17. Hester M. və başqaları (2006), istinad olunan mənbə (qeyd 7)

Effektiv müdaxilə şansını artırmaq üçün proqram tərtibatçıları proqramın qorunması/tamamlanmasını maksimum dərəcədə artırmaq məqsədilə addımlar atmalıdırlar. Planlaşdırma və tərtibat mərhələsində iştirak üçün müxtəlif motivasiya mənbələri, bu motivasiyanın proqramın nəticəsinə təsiri, eləcə də münasibətlərin və davranışın dəyişməsi nöqteyi-nəzərdən əldə ediləcək uğur dərk edilməli və nəzərə alınmalıdır. Proqramı tamamlama göstəricilərinin yaxşılaşdırılması üçün təklif olunan üsullar motivasiya faktorunun (könüllü surətdə müraciət zamanı) dəyərləndirilməsi, kişilərdə proqramda iştirak etmək marağını qorumaq üçün məşğələlərin sayının artırılması,[18] kişilərin zorakı davranışlarına görə bütün məsuliyyəti öz üzərlərinə götürməsinə kömək göstərilməsi[19] məqsədilə ünsiyyətin ilkin mərhələsində yoxlama prosedurlarının tətbiq edilməsini özündə ehtiva edir.

## Zorakılıq törətmiş şəxslər və uşaqlar

Zorakı davranış şəraitində yaşayan uşaqlar həmişə birbaşa və ya dolayısı ilə məişət zorakılığından əziyyət çəkirlər.[20] Qadın zorakılığına qarşı koordinasiya olunmuş ictimai/qurumlararası tədbirlər çərçivəsində kişi qanunpozucuları ilə aparılan iş uşaqların təhlükəsizliyini təmin etmək üçün çalışan qurumlarla əlaqələndirilməlidir. Zorakılıq törətmiş şəxslər üçün bəzi proqramlara uşaqların düzgün tərbiyə olunması ilə bağlı tədbirlər daxildir, lakin zorakılıq törətmiş kişilərin uşaqlarına münasibətini dəyişdirməyə müvəffəq olan proqramların effektivliyini təsdiqləyən az sayda araşdırma mövcuddur.[21] Tədqiqatlar məişət zorakılığını törədənlər üçün proqramların uşaqların və gənclərin həyatını yaxşılaşdıra biləcəyini və zorakılığa görə məsuliyyətin dairəsini uşaqlara təsir edən nəticələri nəzərə almaqla genişləndirməyi göstərir. Proqramlar kişilərə zorakı davranışlarına son qoymaq üçün atdıqları addımlar haqqında uşaqlarına

18. Stenli N. və başqaları (2011), istinad olunan mənbə (qeyd 15)
19. Cadski O. və başqaları (1996), "Attrition from a male batterer treatment program: client-treatment congruence and lifestyle instability", Violence and Victims Spring, Yaz 1996, cild 11, № 1, s. 51-64; Lila M., Grasia E., Murguia S. (2013), "Psychological adjustment and victim-blaming among intimate partner violence offenders: The role of social support and stressful life events", The European Journal of Psychology Applied to Legal Context 2013, cild 5, № 2, s. 147-53. http://ejpalc.elsevier.es/en/psychological-adjustment-and-victim-blaming-among/articulo/90208625/
20. Avropada məişət zorakılığı törətmiş şəxslərlə iş – Dafna II Layihəsi, istinad oluna mənbə (qeyd 1)
21. Alderson S., Westmarland N. və Kelly L. (2013), "The need for accountability to, and support for, children of men on domestic violence perpetrator programmes", Child Abuse Review 2013, cild 22, iş 3, s. 182-193 (7 Noyabr 2012-ci ildə Uili Onlayn Kitabxanasında onlayn surətdə nəşr edilmişdir).

məlumat verməyə imkan verməlidir.[22] Respect UK xeyriyyə təşkilatı təhlükəsiz atalığı akkreditə olunmuş proqramlarının mərkəzi elementinə çevirmişdir.

## Müvəffəqiyyətin müəyyən edilməsi

Zorakılıq törətmiş şəxslər üçün proqramları tərtib edərkən planlaşdırma prosesində bir sıra nəticə göstəriciləri nəzərə alınmalıdır. "Müvəffəqiyyəti" müəyyən edərkən, proqram tərtibatçıları qanun pozucusunun zorakı davranışına son qoymaqdan daha yüksək məqsədlərə nail olmağa çalışmalıdırlar. Son araşdırmalar[23] "müvəffəqiyyətin" (daha real və əsaslı olan) daha dəqiq və müfəssəl anlayışını təqdim edir:

- proqramlara qatılan kişilərlə tərəf müqabillərinin/keçmiş tərəf müqabillərinin arasında hörmət və səmərəli ünsiyyətə əsaslanan münasibətlərin yaxşılaşdırılması;
- tərəf müqabillərinin/keçmiş tərəf müqabillərinin fikirlərini ifadə etmək və seçim etmək qabiliyyətini bərpa edərək, onların rufahını yaxşılaşdırmaqla genişləndirilmiş "fəaliyyət sahəsi" əldə olunması;
- qadınlar və uşaqların təhlükəsizliyi, zorakı və şiddətli davranışdan xilas olması;
- uşaqların təhlükəsiz, pozitiv və birgə tərbiyəsi;
- proqramlarda iştirak edən kişilər üçün məişət zorakılığının tərəf müqabillərinə və uşaqlarına təsirini anlamaq da daxil olmaqla özləri və başqaları haqqında məlumatlılığın artırılması;
- uşaqlar üçün – onların rəyinin eşidildiyi və onlara qayğının göstərildiyi hiss edilən təhlükəsiz və sağlam uşaqlıq dövrünün təminatı.

Beləliklə, proqramın maksimum tamamlanması vacib bir amil olmasına baxmayaraq, bunun özü proqramın "müvəffəqiyyətli" olmasına gətirib çıxarmayacaqdır. Proqramın aşağı səviyyədə tamamlanmasına əlavə olaraq, qanunpozucularının qurbanları hədsiz şəkildə günahlandırması da vacib bir problemdir. Yeni tədqiqatlar göstərir ki, proqramların effektivliyinin artırılması üçün müdaxilə proqramlarında məişət zorakılığı törətmiş şəxslərin psixoloji adaptasiyasına diqqət yetirilməlidir ki, bu da zorakılıq qurbanlarının

22. Alderson S., Westmarland N. və Kelly L. (2013), yenə orada s. 190-191.
23. Westmarland N., Kelly L. və Chalder-Mills J. (2010), "Məişət zorakılığı törətmiş şəxslər üçün proqramlar: Müvəffəqiyyəti necə müəyyən etmək olar?" (Brifinq qeydi 1), Respect, London, s. 15. http://www.respect.uk.net/data/files/respect_research_briefing_note_1_what_counts_as_success.pdf

günahlandırılmasını azalda bilər. Məsələn, özünüqiymətləndirmə və depressiv simptomatikanın artırılması yolu ilə. Proqramlar yalnız qanunpozucusunun davranışını dəyişdirməyə fokuslanmamalı, eyni zamanda qadına qarşı zorakı münasibəti davam etdirən mövcud münasibətlərin dəyişdirilməsinə kömək etməlidir. Buna görə də proqramların "müvəffəqiyyətli" olması üçün onlar aşağıda göstərilən hədəflərə nail olmağa istiqamətlənməlidir:

- qanunpozucuları tərəfindən törətdikləri zorakılığın qəddarlığının dərk edilməsi: zorakılıq törətmiş şəxslərin çoxu aqressiv davranışlarında cinayət əməli görmür, davranışının faktiki olaraq "normal" olduğunu hesab edirlər;
- şəxslərin törətdiyi zorakılığa görə məsuliyyət hissinin artırılması: zorakılıq törətmiş şəxslər öz qurbanlarını onları aqressiv və ya təhqiramiz davranışlara təhrik etməkdə günahlandırır və məsuliyyətdən boyun qaçırırlar;
- qurbanlara fərdi qoruma tədbirləri yaratmaq üçün istifadə edilə bilən, məişət zorakılığı ilə əlaqəli fərdi psixososial faktorları müəyyənləşdirərək təkrar cinayət törədilməsi riskinin azaldılması.

Xüsusilə dəyişiklik üçün motivasiyanı və müalicəyə sadiqliyi artırmağa hədəfləyən müdaxilə yanaşmaları getdikcə məişət zorakılığı törətmiş şəxslər üçün müdaxilə proqramlarının effektivliyini artırmaq üçün vacib yollar kimi qəbul edilir.[24]

## Minimum təcrübə standartları

Zorakılıq törətmiş şəxslərlə iş üzrə daha bir mühüm məsələ bu proqramların həyata keçirilməsi zamanı keyfiyyətin və ardıcıllığın təmin edilməsi məqsədilə minimum təcrübə standartlarının və akkreditasiyanın yaranmasıdır. Avropa Şurası qanunpozucuları üçün proqramlar üzrə minimum standartları ehtiva edən və faktiki məlumatlara əsaslanan minimum xidmət standartları işləyib hazırlamışdır.[25]

24. Lila M., Gracia E., Murguia S. (2013), istinad olunan mənbə (qeyd 19)
25. Avropa Şurası (2008), Qadınlara qarşı zorakılıqla mübarizə: dəstək xidmətləri üçün minimum standartlar, Avropa Şurası, Strasburq.

Birləşmiş Krallıqda Respect Akkreditasiya Standartı peşəkar mütəxəssislərin və effektiv layihələrin işlərinə görə tanınmağı, təhlükəsizlik yönümlü təcrübələrin tətbiqini davam etdirməyi, vəsait toplamağı və davamlılığı təmin etməyi dəstəkləyərək proqramların müxtəlif yollarla həyata keçirilməsi üçün qəbul olunmuş təməl kimi çıxış edir. Bu Standart insan hüquqları və gender təhlili üzrə möhkəm bir təmələ malikdir və ayrı-seçkiliyə yol verməyən yanaşmaya əsaslanır.[26]

Almaniyada Məişət Zorakılığı Törətmiş Şəxslərlə iş üzrə Federal Birlik (Bundesarbeitsgemeinschaft Täterarbeit Häusliche Gewalt – BAG TäHG – e. V.) qanunpozucuları ilə səmərəli işləmək üçün məişət zorakılığına qarşı qurumlararası kooperativ birliklərlə əlaqəli daima ümumi keyfiyyət standartlarını inkişaf etdirir. Bu standartların müəyyən edilməsi faktiki verilənlərə əsaslanır, qurumlararası yanaşmadan istifadə edir və qurbanlar haqqında təsəvvür yaranmasını təmin etmək üçün qadın dəstək xidmətləri və sığınacaqlarla əməkdaşlıq çərçivəsində hazırlanmışdır.[27]

## Məişət zorakılığı törətmiş şəxslərlə işin əsas prinsipləri

Cari standartlar, təlimatlar və mövcud məlumatlar məişət zorakılığı törətmiş şəxslər üçün müdaxilə proqramlarının aşağıdakı kimi olmasını təklif edir:

- qurbanlara dəstək xidmətləri ilə əməkdaşlıq edərək qadın tərəf müqabillərinin və uşaqların təhlükəsizliyinə üstünlük vermək. Proqramlar qadın tərəf müqabillərinə həm qrup, həm də fərdi dəstək təklif etməli, eləcə də proqramın məqsədləri və məzmunu, məhdudiyyətləri, tərəf müqabilinin onu manipulyasiya və ya idarə etmək üçün varlığından necə istifadə edə biləcəyi, dəstək almaq və öz təhlükəsizliyini planlaşdırmaq imkanı haqqında məlumatlı olmalarını təmin etməlidir;
- zorakı münasibətlər şəraitində yaşayan uşaqların perspektivlərini həm kişilərlə birbaşa işdə, həm də digər agentliklərlə daha geniş qarşılıqlı münasibətlərdə prioritet olaraq daxil etmək;
- qadınlara qarşı zorakılığın aydın və hərtərəfli şərhi istiqamətində çalışmaq, qadınlara və uşaqlara qarşı zorakılığın qəbuledilməz olduğu və qanunpozucularının zorakı davranışlarına görə cavabdehliyi barədə açıq prinsip üzərində işləmək;

26. EIGE – Avropa Gender Bərabərliyi İnstitutu (2013) http://eige.europa.eu/content/the-respect-accreditation-standard-and-process
27. EIGE – Avropa Gender Bərabərliyi İnstitutu (2013) http://eige.europa.eu/content/standards-and-recommendations-for-working-with-male-perpetrators-in-the-context-of-interagen

- qanunpozucularının zorakılıq tətbiq etmələrinin öz seçimləri olduğunu qəbul etdirməklə, habelə onlar tərəfindən öz əməllərini inkar etməsinə, əsaslandırmasına və başqa şəxsləri günahlandırmasına etiraz etməklə, şəxslərin dəyişməsinə yardımçı olmaq (qanun pozucusunu Respect üsulu ilə müalicə edərkən);
- zorakılığa səbəb ola biləcək mürəkkəbliyi və fərqli yolları, pozuntu amillərinin sosial, institusional, ictimai və fərdi səviyyədə necə pozula biləcəyini anlamaq üçün ekoloji bir modeldən istifadə etmək (məsələn, Hagemann-White tərəfindən 2010-cu ildə hazırlanmış interaktiv model);[28]
- müxtəlif qanunpozucusu qruplarına və ya "növlərinə" uyğunlaşmaq (müxtəlif kriminoqen və fərdi ehtiyaclara əsaslanaraq);
- hərtərəfli/qurumlararası yanaşma çərçivəsində reallaşmaq, ən azı iki il müddətinə başa çatmaq və bu səbəbdən maliyyə mənbələri baxımından mühüm sərmayə və uzunmüddətli öhdəliklər tələb etmək;
- proqramın saxlanmasını və tamamlanmasını maksimum dərəcədə artırmaq üçün tədbirlər görmək;
- müxtəlif istiqamətləri və ya giriş marşrutlarını nəzərə almaq;
- qəbul/ilkin qiymətləndirmə zamanı fərqli motivasiya mənbələrini nəzərə almaq və zaman keçdikcə motivasiyada ola biləcək dəyişiklikləri aşkar etmək üçün proqram boyunca nəzarət həyata keçirmək;
- sistematik risk qiymətləndirməsini və idarəetməsini tətbiq etmək; qəbul mərhələsində və qanunpozucusunun davranışının risk səviyyəsinin mümkün dəyişikliyini göstərdiyi zaman risk qiymətləndirilməsi daxil olmaqla. Risk qiymətləndirməsi bir çox məlumat mənbəyi, məsələn, qurbanın/tərəf müqabilinin yanaşmasını və mövcud rəsmi məlumatları (polis və digər agentlik məlumatları) daxil etməlidir. Hərtərəfli risk qiymətləndirməsindən istifadə motivasiya mənbələrini və zamanla baş verən dəyişiklikləri müəyyənləşdirməyə və idarə etməyə, həmçinin müəyyən bir mədəni kontekst çərçivəsində tibbi, sosial və ya uşaq xidmətləri kimi agentliyin əməkdaşlarına münasibətlərin dinamikasını anlamağa və müvafiq qaydada reaksiya verməyə kömək edə bilər;

---

28. Hagemann-White C. və başqaları (2010), Qadınlara qarşı, uşaqlara qarşı və cinsi xarakterli zorakılığa təsir edən amillər – Çox səviyyəli interaktiv model (Avropa Komissiyası üçün gender əsaslı zorakılıq və uşaqlara qarşı zorakılığa dair milli qanunvericiliyin standartlaşdırılması imkanlarını və ehtiyaclarını dəyərləndirmək üçün texniki-iqtisadi işin bir hissəsi; JLS / 2009 / D4 / 018), Avropa Birliyinin Nəşrlər Bürosu, Lüksemburq. Daha çox məlumat üçün bax: Avropa Şurası (2014), Qadınlara qarşı zorakılığın qarşısının alınması: İstanbul Konvensiyasının 12-ci maddəsi, Avropa Şurası, Strasburq. https://rm.coe.int/brochure-on-article-12-of-the-istanbul-convention-aze/1680a23ccf

- koordinatorların yüksək ixtisas və təlim səviyyəsini təmin etmək (zorakılıqla müşayiət olunmayan münasibətlər və gender bərabərliyi öhdəliyi ilə yanaşı, zorakı münasibətlərin dinamikasının hərtərəfli başa düşülməsi də daxil olmaqla) və digər agentliklərə dəstək üçün məişət zorakılığı məsələləri üzrə xüsusi təlimlər təklif etmək;

- həm prosesi, həm də nəticələri izləmək, sənədləşdirmək və qiymətləndirmək. Qiymətləndirmə üçün dərslər aşağıdakıları nəzərdə tutur:

  – proqramlar qadın tərəf müqabilləri (və övladları) üçün daha çox "dəqiq" nəticələri özündə cəmləşdirən geniş "müvəffəqiyyət" konsepti ilə işləməlidir və zorakılıq törətmiş şəxslərin davranışında ümumi dəyişikliyi deyil, ehtimal olunan ciddilik və ya məsuliyyət kimi dəyişdirilə bilən amillər/dəyişənlər əsasında nəticələri ölçməlidir;

  – proqramlar zorakılıq törətmiş şəxslərin müalicəni başa çatdırmaq motivasiyasını davamlı olaraq izləməli və müxtəlif qanunpozucusu qruplarının fərqli motivlərini və müalicə yollarını müəyyənləşdirə bilməlidir. Əldə olunacaq müvəffəqiyyət yalnız proqramın tamamlanma dərəcələri və ya özləri tərəfindən bildirdikləri zorakılıq səviyyələri ilə ölçülə bilməz. Lakin qanunpozucularının özləri tərəfindən bildirdikləri məlumatlar digər qurumlar üçün faydalı ola bilər. Məsələn, uşaqların məhkəməyə müraciət etmək üçün mühafizəsi və ya qadınlara mülki iddia qaldırmağa qərar verməkdə kömək etmək;

  – qiymətləndirmə nəticələri/müvəffəqiyyəti ölçmək üçün məlumat mənbələrini əlaqəli təhlil etməli, mümkün olduqda qadın tərəf müqabillərinin hesabatlarını, eləcə də, tərəf müqabillərinin və ya övladlarının təhlükəsizliyinin, təhlükəsizlik hissinin və ya həyat keyfiyyətinin yaxşılaşdığını müəyyən etmək üçün rəsmi məlumatları[29] və özləri tərəfindən söylənilən zorakılıq səviyyəsini əks etdirməlidir;

  – proqram çərçivəsində müxtəlif fəaliyyət növlərinin ayrı-ayrılıqda qiymətləndirilməsinə zərurət ola bilər;

  – qiymətləndirmə zamanı mümkün olduğu təqdirdə müqayisə qruplarından istifadə edilməli və proqram başa çatdıqdan sonra minimum nəzarət müddəti kimi 6 ay təyin edilməlidir.[30]

---

29. Həbs, fiziki və ya digər zorakılıq hadisələri, hədə-qorxu və s. kimi cinayət məlumatları daxil olmaqla.
30. Feder L., Wilson D.B., Austin S. (2008), "Court-mandated interventions for individuals convicted of domestic violence", Campbell Systematic Reviews, Kempbel Kitabxanası 2008, cild 4, iş 12.

## Məişət zorakılığı törətmiş şəxslər üçün proqramların nümunəvi tədris planları

1980-ci illərin ortalarında hazırlanmış Dulut (ABŞ) Proqramı[31] məişət zorakılığı törətmiş şəxslər üçün ən uzun müddətli proqramlardan biridir. Proqramın məqsədi kişilərin zorakı davranışlarını dayandırmalarına yardımçı olmaqdır. Tədris planı hər biri üç həftə ərzində araşdırılan səkkiz mövzudan ibarətdir. Hər bir mövzu "bərabərlik çarxı"nda təsvir olunan zorakılıqla müşayiət olunmayan və hörmətə əsaslanan münasibətləri əks etdirir. Bu mövzular vasitəsilə kişilərə qadınlarla bərabər və qarşılıqlı əlaqəli münasibətlər modeli təklif olunur. Eyni zamanda, tədris proqramı qanunpozucularının münasibətlərində nəzarəti yaratmaq və qorumaq üçün istifadə etdikləri əsas taktika və davranışları araşdırır. Tədris proqramının bu elementləri "hakimiyyət və nəzarət çarxı"nda təsvir edilmişdir. İstifadə olunan mövzular və metodlar məişət zorakılığı törətmiş şəxslərin fiziki və cinsi zorakılıq da daxil olmaqla, qurbanlarına nəzarət etmək və onlara hakim olmaq üçün istifadə etdikləri zorakı davranışın bütün aspektlərini əhatə edir. Dulut proqramı Avropa Şurasına üzv olan bir sıra dövlətlərdə oxşar müdaxilələrə səbəb oldu.

Digər bir nümunə İsveçdir. İsveç Həbsxana və Probasiya Xidməti tərəfindən yaradılan İnteqrasiya olunmuş Məişət Zorakılığı Proqramı (IDAP) təhdidlərə, fiziki zorakılığa və ya qadın tərəf müqabillərinə/keçmiş tərəf müqabillərinə nəzarət etməkdə təqsirləndirilən yetkin kişilər üçün müalicə proqramıdır.[32] Milli akkreditə olunmuş yeganə məişət zorakılıq müalicəsi proqramı olaraq, kişilərə uzunmüddətli bərabərlik münasibətlərində yaşamaq məqsədlərinə çatmaq üçün hökmetmə problemlərini həll etmə və davranışlarına nəzarət etmə imkanı təqdim edir. 27 həftəlik qrup məşğələlərindən sonra hər bir cinayətkara təkrar cinayət törədilməsinin qarşısının alınması üçün fərdi məşğələlərin keçirilməsi planlaşdırılır. Proqram qadın tərəf müqabili/keçmiş tərəf müqabilinin təhlükəsizliyinin təminatı məqsədilə "Qadınların təhlükəsizliyinin təmin edilməsi üzrə iş" komponentini özündə ehtiva edir. Bu proqram 2011-ci ildə qiymətləndirilib.

31. Pence E. və Paymar M. (1993), "Döyən kişilər üçün maarifləndirmə qrupları". Dulut modeli, Springer nəşriyyatı, Nyu York.
32. http://eige.europa.eu/internal/csr/view/20170?destination=internal%2Fcsr%2Fsearch%2F25

# Cinsi xarakterli cinayət törətmiş şəxslər üçün müalicə proqramları

Artır neçə vaxtdır ki, cəzaçəkmə müəssisələrində cəza çəkən cinsi zorakılığa meylli şəxslər üçün proqramlar yaradılmışdır. Belə proqramlar, bir qayda olaraq məhkəm-tibb sistemindəki səlahiyyətli dövlət qurumları tərəfindən icra olunur və bəzən sərbəst buraxıldıqdan sonra yenidən cinayət törətmək riskini qiymətləndirməyə xidmət edir. Bu yaxınlarda, ailə-məişət zəminində cinsi xarakterli zorakılıq törətmiş şəxslərin müalicəsini əhatə edən bəzi proqramlar hazırlanmışdır.[33] Cinsi xarakterli cinayət törətmiş şəxslər üçün proqramlar, adətən koqnitiv-davranış, psixososial və/və ya farmakoloji müdaxilələrə əsaslanır. Əksər proqramlar qanunpozucusunun şəxsi/intim münasibətlərə yanaşmasını, düşüncələrini, hisslərini dəyişdirməklə, onun ümumi davranışının dəyişməsinə nail olmağı son hədəf kimi müəyyən etmişdir.

## Proqramın effektivlik xüsusiyyəti

Effektivliyin qiymətləndirilməsi hələ də problemli mövzu olaraq qalır və fərqli müalicə növlərinin yenidən cinayət törətməyə təsirini göstərmək üçün nəzarətli qiymətləndirmələr baxımından daha çox iş görülməsi lazım olduğuna dair bir fikir birliyi mövcuddur.[34] Qrup müdaxilələrinin kliniki və iqtisadi üstünlüklərinin cinsi xarakterli cinayət törətmiş şəxslərin risk faktorları ilə müalicə ehtiyacları arasındakı fərdi fərqləri həll edən terapiya ilə birləşdirilməsi təklif olunur

33. Avropa Şurası (2014), Qadınların zorakılığa qarşı qorunmasına dair Tövsiyə Rec (2002) 5-in icrasına dair monitorinqin 4-cü turunun nəticələrinin analitik tədqiqi, Avropa Şurası, Strasburq.
34. Perkins D. və başqaları (1998), "Yüksək Təhlükəsizlik Rejimli Psixiatriya Xidmətləri Komissiyası (HSPSCB) üçün cinsi xarakterli cinayət törətmiş şəxlərlə mübarizə proqramlarının icmalı"; Schmucker M. və Losel F. (2008), "Does sexual offender treatment work? A systematic review of outcome evaluations", Psicothema 2008, cild 20, № 1, s. 10-19; Dennis J.A. və başqaları (2012), "Psychological interventions for adults who have sexually offended or are at risk of offending", Cochrane Database of Systematic Reviews 2012, iş 12, John Wiley & Sons Ltd.

(məsələn, Böyük Britaniya həbsxanalarında seksual xarakterli cinayət törətməkdə təqsirli bilinən cinayətkarlar üçün müalicə proqramı (SOTP)).[35]

Tədqiqat zamanı əldə olunan məlumatlar aşağıdakıları göstərir:

- həm cəzaçəkmə müəssisələrində, həm də icmalarda müalicə alan cinsi xarakterli cinayət törətmiş şəxslərin yenidən cinsi xarakterli cinayət törətməkdə ittiham olunması halları müalicə almayan cinayətkarlara nisbətən daha azdır;
- məcburi müalicə könüllü müalicə ilə eyni dərəcədə təsir göstərmişdir;
- qrup işi ilə fərdi işin birləşdirilməsini təklif edən proqramlar daha səmərəlidir;
- koqnitiv-davranış müalicəsi, xüsusilə farmakoloji müalicə ilə birləşdirildikdə (məsələn, cinsi istəyi azaldan hormonal dərmanların istifadəsi) daha effektiv nəticələr verir;[36]
- digər yanaşmalar (psixoterapiya, konsukltasiya və davranışla əlaqəli olmayan müalicə), ümumiyyətlə eyni əməllərə görə yenidən ittiham olunma hallarını azaltmır.[37]

## Minimum standartlar

Məişət zorakılığı törətmiş şəxslər üçün proqramlar baxımından cinsi xarakterli cinayət törətmiş şəxslərlə bağlı qəbul edilmiş davranış standartları mövcuddur.

35. Birləşmiş Krallığın Ədliyyə Nazirliyi (2010), Cinsi xarakterli cinayət törətmiş şəxslərə qarşı nə effektivdir?, Cinayətkarlığın idarə olunması üzrə Milli Xidmət, Birləşmiş Krallıq. www.justice.gov.uk/downloads/information-access-rights/foi-disclosure-log/prison-probation/foi-75519-annex-a.pdf
36. İşgəncənin və Qeyri-insani yaxud Ləyaqəti Alçaldan Rəftar və ya Cəzanın Qarşısının Alınması üzrə Avropa Komitəsi əlaqədar tərəflərin müstəqil ekspert rəyi tələb etməsi üçün fürsət olmaması və bu tip tədbirlərin vaxtaşırı təhlil edilməməsi səbəbindən təcavüzkarların məcburi farmakoloji müalicəsi ilə bağlı narahatlığını ifadə etdi. İşgəncənin və Qeyri-insani yaxud Ləyaqəti Alçaldan Rəftar və Cəzanın Qarşısının Alınması üzrə Avropa Komitəsi hər hansı bir tibbi müalicədə olduğu kimi, antiandrogen müalicəyə başlamazdan əvvəl də şəxsin məlumatlandırılmış razılığının alınmasını tövsiyə edir. Bax: 2009-cu ildə Polşaya Dövri Səfər Hesabatı, İşgəncənin və Qeyri-insani yaxud Ləyaqəti Alçaldan Rəftar və ya Cəzanın Qarşısının Alınması üzrə Avropa Komitəsinin Ümumi Hesabatı 2010-11, paraqraf 45.
37. Birləşmiş Krallığın Ədliyyə Nazirliyi (2010), istinad olunan mənbə (qeyd 35)

Cinsi xarakterli cinayət törətmiş şəxslərin müalicəsi üzrə Beynəlxalq Assosasiya (IATSO) cinsi xarakterli cinayət törətmiş şəxslərlə davranışın peşə səriştəsinin minimum standartlarını və ilkin şərtlərini tərtib etmişdir.[38]

## Cinsi xarakterli cinayət törətmiş şəxslər üçün müalicə proqramlarının əsas prinsipləri

Ən etibarlı təcrübi məlumatlara əsaslanaraq, proqram tərtibatçılarına aşağıdakı hallara yönəlmiş cinsi xarakterli cinayət törətmiş şəxslər üçün müalicə proqramlarını həyata keçirmək tövsiyə olunur:

- qeyri-funksional bağlılıq, yaşanmış (keçmişdə) seksual/fiziki/emosional zorakılıq kimi cinayət törətmək meylinin aradan qaldırılmasına; təhqiramiz cinsi davranışın qorunması ilə əlaqəli amillərə (cari); təkrar cinayətin qarşısının alınması bacarıqlarının inkişafına (gələcəkdə);
- şəxsləri öz əməllərini dərk etməyə, cinayət törətməmək motivasiyasına və cinayətlərdən çəkinmək və cinayət törətmədən həyat tərzini seçmək üçün zəruri olan bacarıqlara yönəltməyə;
- qanunpozucularının kriminogen və fərdi tələbatlarına, eyni zamanda onların intellektual və emosional imkanlarına uyğun müalicə metodlarından istifadə etməyə;
- müalicə və qiymətləndirmənin müxtəlif aspektlərindən asılı olaraq ətraf mühit, qrup terapiyası və fərdi terapiyanın birləşmələrindən istifadə etməyə.[39]

38. Cinsi xarakterli cinayət törətmiş şəxslərin müalicəsi üzrə Beynəlxalq Assosasiya tərəfindən tərtib edilmiş "Cinsi xarakterli cinayət törətmiş yetkin yaşlı şəxslərin Müalicə Standartları. http://www.iatso.org/index.php?option=com_phocadownload&view=category&id=4&Itemid=24
39. Perkins D. Və başqaları (1998), istinad olunan mənbə, s. 2. (qeyd 34)

## Cinsi xarakterli cinayət törətmiş şəxslər üçün proqramların nümunəvi tədris planları

2002-ci ildən bəri İsveç Həbsxanası və Probasiya Xidmətinin istifadə etdiyi Relation och Samlevnad proqramı (ROS – Cinsi xarakterli cinayət törətmiş şəxslərin müalicə proqramı)[40] qrup məşğələləri, ev tapşırıqları və fərdi müalicə kimi bir neçə komponenti əhatə edir. Əvvəlcə Kanadada hazırlanmış bu proqram məlum risk faktorlarına əsaslanan beş müalicə komponentindən ibarətdir (koqnitiv pozuntu və müalicə strategiyaları; məhrəmlik, münasibətlər və sosial vərdişlər; qurbana qarşı empatiya və onun məlumatlılığı; emosiyalarla iş; deviant (ümumi qaydalardan kənara çıxan) seksual fantaziyalar və seksual ehtiras). 8-ə qədər iştirakçı olan çoxsaylı qrup məşğələləri (153-168 saatlıq 51-56 dərs) 18 fərdi məşğələ ilə tamamlanır. Proqramın ayrı-ayrı iştirakçılar üzərində davranış dəyişikliyi təsirlərini qiymətləndirmək üçün əvvəl və sonra testlər aparılır. İsveç Həbsxanası və Probasiya Xidmətinin Elmi Komissiyası 2006-cı ildə bu proqramı tamamilə təsdiqlədi və elə həmin ildə proqramın geniş qiymətləndirilməsinə başladı. Kanadada ilkin proqramla bağlı tədqiqatlar təsdiq etmişdir ki, bu tədris planına riayət edən cinsi xarakterli cinayət törətmiş şəxslər üçün proqramlar eyni əməllərə görə təkrar cinayət törədilməsinin səviyyəsini aşağı salır.

40. http://eige.europa.eu/internal/csr/view/20170?destination=internal%2Fcsr%2Fsearch%2F25

# Məişət zorakılığı törətmiş və cinsi xarakterli cinayət törətmiş şəxslər üçün müalicə proqramları üzrə qabaqcıl təcrübə nümunələri

Aşağıdakı dörd proqram nümunəsi tətbiq edilmə üçün seçildiyindən, onlar müsbət və ya orta dərəcədə müvəffəqiyyətlə qiymətləndirilmişdir.

## İspaniya

“Kontexto” proqramı (http://www.uv.es/contexto/)

**Müdaxilə:** Məişət zorakılığı törətmiş kişilər üçün bu icma əsaslı müdaxilə proqramı dörd səviyyəli təhlili - fərdi, şəxsiyyətlərarası, situasiya və makrososial – nəzərə almaqla, risk faktorlarını azaltmaq və qadınlara qarşı şəxsiyyətlərarası zorakılığa qarşı qoruyucu amilləri artırmaq məqsədi daşıyır.[41] İlkin olaraq Lori Heise[42] tərəfindən hazırlanmış bir ekoloji modelə əsaslanan bu proqram Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən tövsiyə edilmiş geniş

41. Lila M. Və başqaları (2013), “Predicting success indicators of an intervention programme for convicted intimate-partner violence offenders: The Contexto programme”, The European Journal of Psychology Applied to Legal Context 2013, 5(1), s. 73-95. www.usc.es/sepjf
42. Heise L. (1998), “Violence against women: an integrated, ecological framework”, Violence against Women 1998, cild 4, № 3, s. 262. Daha çox məlumat üçün bax: Avropa Şurası (2014), Qadınlara qarşı zorakılığın qarşısının alınması: İstanbul Konvensiyasının 12-ci maddəsi, Avropa Şurası, Strasburq.

istifadə olunan çərçivəyə əsaslanır və fərdi səviyyədə gender əsaslı zorakılığın törədilməsi yollarını aradan qaldırmağa yönəlmişdir. Müdaxilənin effektivliyini proqnozlaşdırmaq üçün üç göstərici istifadə edilmişdir: qanunpozucuları tərəfindən ehtimal edilən zorakılıq səviyyəsinin artması (qadınlara qarşı zorakılığın qəbul olunmasına münasibətləri ilə əlaqəli); onların zorakı davranışlarına görə məsuliyyət hissinin artması; təkrar cinayət riskinin – residivlik səviyyəsinin azaldılması.

**Nəticələr:** Qİymətləndirmə[43] proqramdan əvvəl və sonrakı dəyişikliklər üçün əhəmiyyətli dərəcədə müsbət yönümlü inkişaf göstərdi. Kişilərin öz hesabatları aşağıdakıları nəzərdə tuturdu: münasibətdəki müsbət dəyişiklik; qısqanclıq, qəzəb, düşmənçilik və impulsivlik hisslərinin azaldılması; daha az emosional zorakılıq və şəxsiyyətlərarası münaqişələrlə mübarizə qabiliyyətinin yaxşılaşdırılması; tərəf müqabili ilə münasibətlərin yaxşılaşdırılması; məsuliyyətin qəbul edilməsi və empatiyanın artması; residivliyin azalması. Qanunpozucularında ehtimal olunan zorakılıq səviyyəsinin artması gənc iştirakçılarda, qısa müddətə azadlıqdan məhrum edilmiş şəxslərdə, daha az alkoqol qəbul edən, daha yüksək həyat məmnuniyyəti olan, cəmiyyətdə daha fəal iştirak edən və özünü yüksək qiymətləndirən iştirakçılarda müşahidə edildi. Zorakı davranışlarına görə məsuliyyətin qəbul edilməsində ən böyük artım olan iştirakçılara isə daxil idi: yaşlı iştirakçılar, daha yüksək səviyyədə intim dəstək, daha yüksək narahatlıq, yüksək cinsiyyətçilik təqdim edən, qəzəbə daha az nəzarət edən, yüksək depressiya, yüksək impulsivlik və özünü yüksək qiymətləndirmə ilə xarakterizə olunan iştirakçılar. Təkrar cinayət törətmək ehtimalının aşağı düşdüyü iştirakçılar: daha az alkoqol qəbul edən edən iştirakçılar, qısa müddətə azadlıqdan məhrum edilmiş iştirakçılar, aşağı səviyyəli impulsivliyə malik və özünü yüksək qiymətləndirən iştirakçılar.

**Dərslər:** Tədris zamanı ənənəvi olaraq qadınlara qarşı şəxsiyyətlərarası zorakılıqla əlaqəli psixososial dəyişkənliklər (lakin əksər hallarda ayrı-ayrılıqda nəzərdən keçirilir) və qanunpozucusunun yaşı və cəzanın müddəti (müdaxilənin uğuru ilə əlaqəli) nəzərə alınır. Bu, proqnozlaşdırıcıların təsirini çox ölçülü bir kontekstdə araşdıraraq tədqiqata mühüm töhfələr verir.

**Məhdudiyyətlər:** İspan qanunları qadın tərəf müqabilləri ilə məsləhətləşməyə icazə vermədiyi üçün qiymətləndirməyə iştirakçıların qadın tərəf müqabilləri üçün nəticələr haqqında hesabatlar daxil edilməyib. Bu problemlidir və digər

43. Lila M. və başqaları (2013) istinad olunan mənbə (qeyd 41)

qurumlardan bir sıra psixoloji vasitələrin və məlumatların istifadəsini əhatə edən daha geniş qiymətləndirmə metodlarının tətbiqi ilə kompensasiya olunur. Tədqiqat qanunpozucularının icma səviyyəsində icbari müdaxiləsinə cəlb edilməsinə əsaslandığından, onun nəticələri həbsdə olan şəxslərə şamil edilə bilməz. Bu tədqiqat psixoloji adaptasiyaya və qurbanların günahlandırılmasına təsir edən alkoqol qəbulu, koqnitiv pozuntu və ya qəzəb kimi digər amillərin təsirini müəyyənləşdirmir.

**Yanaşma zorakılığın qarşısının alınmasında necə effektivdir:** Müdaxilə və əlaqəli tədqiqatlar qadınlara qarşı zorakılıq meylinə səbəb ola bilən qurbanı günahlandırmaq, stress və sosial dəstək kimi fərdi səviyyədə təsirləri aradan qaldırmaq məqsədi daşıyır. Qurbana qarşı yönəlmiş günahlandırmanın səviyyəsinin azaldılması və ya tam aradan qaldırılması münasibət və davranış dəyişikliyi müdaxilələrinin effektivliyini artıra bilər.

## İspaniya

Azadlıqdan məhrum edilmiş şəxslər üçün müdaxilə proqramı

**Müdaxilə**: Bu, cinsi xarakterli zorakılıq törətmiş kişi məhkumlar üçün koqnitiv davranış modelinə əsaslanan geniş müalicə proqramıdır. Cinsi xarakterli zorakılıqla əlaqəli koqnitiv və davranış pozğunluqlarının korreksiyasını əhatə edən müalicə qrup işi çərçivəsində ¬- 8 ay ərzində 20 həftəlik, 2 saatlıq seanslarda həyata keçirildi. Müdaxilə proqramı aşağıdakıları əhatə edir: məsuliyyətin qəbul edilməsi və müalicə üçün motivasiya; cinsi zorakılıqla əlaqəli empatiyanın yaranması, koqnitiv pozuntuların dəyişməsi kimi yanaşmalara diqqət yetirməklə aqressiv davranışlı kişilərdə psixopatoloji simptomların müalicəsi; yüksək riskli vəziyyətlərin müəyyənləşdirilməsi kimi təkrar cinayət törədilməsinin qarşısının alınması və zorakılığın öhdəsindən gəlmək üçün lazımi alternativ strategiyaların hazırlanması.[44] Qrup işi kişi və qadın mütəxəssislər tərəfindən aparıldı.

**Nəticələr**: Qiymətləndirmə[45] qadınlar və zorakılığa həyat strategiyası kimi baxılması haqqında irrasional təsəvvürlərin mühüm dərəcədə yaxşılaşmasını

44. Müalicə proqramının fərdi komponentlərinin daha ətraflı təsviri üçün Bax: Echeburúa, E. və Fernández-Montalvo, J. (1998) Zorakı kişilər. Nəzəri aspektlər. E. Echeburúa & P. Corral (eds.), Məişət zorakılığı üzrə təlimat kitabçası. Madrid: Siglo XXI, s. 73-90.
45. Echeburúa E., Fernández-Montalvo J. və Amor P.J. (2006), "Psychological treatment of men convicted of gender violence: a pilot study in Spanish prisons", International Journal of Offender Therapy and Comparative Criminology, Sage nəşriyyatı, Fevral 2006, cild 50(1), s. 67.

göstərdi. Nəticələr davranış pozuntularının, düşmənçilik münasibətinin, idarəolunmaz qəzəbin və psixopatoloji simptomların müsbət yönə dəyişməklə azalmasını göstərdi. Bu dəyişikliklərin impulsların daha dərindən idarə edilməsi və qadınların qavrayışı, eləcə də sosial gerçəkliyə daha çox uyğun gələn zorakılığın tətbiq edilməsi baxımından yaxşı bir proqnoza malik olduğu güman edilir.

*Dərslər*: Şəxslərin proqramda iştirakının cəzanın çəkilməsi baxımından faydası olmasa da, proqramdan çıxma halları az idi (iştirakçıların 92 %-i proqramı tamamladı). Proqramı tamamlamış şəxslərin proqramdan çıxan şəxslərlə müqayisəsi bir daha təsdiq etdi ki, dəyişmək istəyi müalicədə iştirak üçün motivasiya nöqteyi-nəzərindən mühüm rol oynayır. Qiymətləndirmə müdaxilənin şəxsin həbsinin son mərhələsində - azadlığa çatmağını gözlədiyi bir dövrdə xüsusilə məqsədəuyğun olduğunu göstərdi. Pproqramın əvvəlində düşmənçi münasibət və ağır psixoloji simptomlar göstərən iştirakçılar üçün müalicə heç bir səmərə vermədi.

*Məhdudiyyətlər*: Tədqiqat məhdudiyyətlərinə aşağıdakılar daxildir: kiçik seçim ölçüsü, bir nəzarət qrupunun olmaması və cəzaçəkmə müəssisəsindən kənarda proqramın zorakı davranışa təsirini dəyərləndirmək imkanının olmaması. Mütəxəssislər proqramın faydalarının həbsxana həyatının monotonluğunu pozması ilə izah olduğundan əmin deyildilər. Bildirilən proqram nəticələri ilkin idi və bu nəticələr qənaətbəxş olmayaraq qalır.

*Yanaşma zorakılığın qarşısının alınmasında necə effektivdir:* Müdaxilə şəxslərin qadınlara qarşı mənfi münasibətlərini dəyişdirərək, qurbanları günahlandırmamaq və zorakılığı münaqişələri həll etmək üçün vasitə olaraq istifadə etməmək yolu ilə həmyaşıd qruplar və fərdi səviyyədə zorakılığa aparan yolları aradan qaldırmaq məqsədini daşıyır. Müsbət nəticələr göstərdi ki, iştirakçılar daha çox emosional sabitlik göstərməyə meyillidirlər və bu da emosional narahatlığa səbəb ola bilən və insanın aqressiv davranışa meyilliliyinin vacib amili olan qəzəb və aqressiya kimi duyğuları yox edir.

## Birləşmiş Krallıq

**Məişət Zorakılığı üzrə Müdaxilə Proqramı (Domestic Violence Intervention Programme – DVIP)**

**Müdaxilə**: Bu icma əsaslı inteqrasiya olunmuş müdaxilə yanaşması qadın və uşaqların təhlükəsizliyinin artırılmasına, qadınlara daha təhlükəsiz seçim etmək imkanı verilməsinə, qanunpozucularının aqressiv və nəzarətedici davranışlarının dayandırılmasına, uşaq qoruma xidmətlərinin imkanlarının genişləndirilməsinə və zorakılıq hallarının yenidən baş verməsinin qarşısının alınmasına yönəlmişdir. Proqramın icrası üzrə xidmət hər il 1500 kişi, qadın və uşaqla işləyir və Londonun təxminən 30 inzibati bölgəsindən və 8 qonşu icmasından tövsiyələr qəbul edir. Xidmət 3 əsas elementdən ibarətdir:

- psixoaktiv maddələrin istifadəsi, zorakı davranışa münasibəti və inkaretmə səviyyəsi də daxil olmaqla məişət və digər kişi zorakılığı tarixinin hərtərəfli təhlilinə əsaslanan riskin mütəxəssis qiymətləndirməsi;
- qanunpozucularının münasibət və davranışlarındakı dəyişikliyi təşviq etmək və dəstəkləmək, qarşılıqlı əlaqələr və valideynlik bacarıqlarını inkişaf etdirmək üçün koqnitiv-davranış metodlarından istifadə edən qruplarda şəxslərlə strukturlaşdırılmış müdaxilə;
- təhlükəsizlik, emosional dəstək və tərəf müqabilinin tərəqqisi və dəyişməsi ilə bağlı real gözləntiləri təşviq etmək, planlaşdırmanı asanlaşdırmaq məqsədi ilə proqrama cəlb edilən hər bir kişinin qadın tərəf müqabili və ya son keçmiş tərəf müqabili ilə fəal əməkdaşlıq edən proqramla əlaqəli qadın dəstək xidməti. Fərdi və ya qrup dəstəyi təklif olunur.

Təbliğat-təşviqat sayəsində Məişət Zorakılığı üzrə Müdaxilə Proqramının unikal Al-Aman Layihəsi ərəbdilli kişiləri və qadınları Proqramın xidmətlərindən istifadə etməyə təşviq edir və ərəbdilli icmalarda məişət zorakılığına reaksiya verən əsas xidmətlərə kömək göstərir.[46]

**Nəticələr**: Qiymətləndirmə[47] qanunpozucularının qadın tərəf müqabilləri üçün daha çox müsbət nəticələr göstərdi (qadın tərəf müqabilləri arasında

---

46. Daha geniş məlumat üçün bax: http://www.dvip.org/assets/files/downloads/al-aman%20evaluation.pdf
47. Rajagopalan V., Price P. və Donaghy P. (2008), Qadın və uşaqların təhlükəsizliyinin artırılması: Şərqi Londonda Məişət Zorakılığının Qarşısının Alınması Layihəsinin qiymətləndirilməsi, DVIP, London.

proqramın bitməsindən 3, 6 və 18 ay sonra yenidən zorakı davranışın qurbanı olub-olmadıqları barədə sorğu aparıldı). Belə ki, qadınların 70 %-i tərəf müqabillərinin DVIP-də iştirak etdikləri andan etibarən zorakılığa məruz qalmadıqlarını, digərləri isə zorakılığın mühüm şəkildə azalmasını qeyd etdilər; qadınların 65 %-i özlərini nisbətən təhlükəsiz hiss etdiklərini, 93 %-i isə həyat tərzinin yaxşılaşdığını söylədilər. Nəticələr, eyni zamanda təkrar zorakılıq əməllərinin azalmasını, uşaq qoruma xidmətlərinin fəaliyyətinin aktivləşməsini və sosial xidmətlər kimi əlaqədar qurumlarla daha sıx əməkdaşlığın yaranmasını göstərdi.

**Dərslər**: Qurban və/və ya qanunpozucusu ilə davamlı müdaxilə təkrar cinayət törətmə hallarının 87.5 %-dən 89.3 %-ə enməsi ilə nəticələndi; digər qurumlarla birgə fəaliyyət məişət zorakılığının daha yaxşı başa düşülməsinə, eləcə də münasibətlərin dinamikasını müəyyənləşdirməyə və daha uyğun reaksiyalar verməyə kömək etdi; layihə rəhbərləri ilə layihə işçiləri arasındakı əməkdaşlıq uşaq qoruma xidmətlərinə müraciətlərin sayının artmasına effektiv təsir göstərdi.

**Məhdudiyyətlər**: Qiymətləndirmə və müqayisələrin aparılması müdaxilə proqramında iştirak etməyən qanunpozucularını əhatə etmirdi.

Yanaşma zorakılığın qarşısının alınmasında necə effektivdir: Çoxşaxəli müdaxilələr müxtəlif səviyyələrdə zorakılığa aparan yolların aradan qaldırılmasına kömək etdi.

Təşkilati səviyyədə digər qurumlarla əməkdaşlıq çərçivəsində işləyən proqram agentliklərə riskin qiymətləndirilməsi və idarə edilməsinə dair tövsiyələr təqdim edir. Bu, həssas qadınlarla işləyən mütəxəssisləri dəstəkləməyə və məlumatlandırmağa kömək edir (və risk altında olan uşaqları qoruyur). Proqram, eyni zamanda digər mütəxəssislərin məişət zorakılığı barədə məlumatlılıq səviyyəsini artıraraq, yerli qurumların/xidmətlərin siyasət və təcrübə üzrə maarifləndirilməsi kimi daha geniş cəmiyyət reaksiyası üçün əhəmiyyətli bir töhfə verir.

Həmyaşıd qrupu səviyyəsində qanunpozucuları ilə qrup işi kişilərin həmyaşıdları arasındakı münasibət və davranışlarına – stereotiplərə, xürafatlara və yaşıdları tərəfindən qadınlara qarşı mənfi münasibətlərə və zorakılığa dəstəyə "meydan oxuyur".

Fərdi səviyyədə proqram isə uşaq zorakılığına məruz qalma, koqnitiv pozuntular və/və ya stimullardan sui-istifadə kimi zorakı münasibətlərə və aqressiv davranışa sövq edən fərdi amillərə birbaşa təsir edərək, şəxslərin zorakılığa meylini azaltmaq məqsədi daşıyır.

## Birləşmiş Krallıq

**Cinsi Xarakterli Cinayət Törətmiş Şəxslərin Müalicə Proqramı (əsas SOTP )**

*Müdaxilə*: Cinsi xarakterli cinayət törətmiş şəxslərin əsas müalicə proqramı 1991-ci ildə fəaliyyətə başlamışdır və Birləşmiş Krallıq həbsxanalarında orta və yüksək riskli məhkumlar üçün başlıca könüllü proqram hesab olunur. Koqnitiv-davranış üzrə qrup işi şəxsin yenidən cinayət törətməmək üçün motivasiyasını artırmaq və buna nail olmaq üçün lazımi özünüidarəetmə bacarıqlarını inkişaf etdirmək məqsədilə həyata keçirilir. Proqram cinayətkarlara cinsi cinayətləri necə və niyə törətdiklərini anlamağa kömək edir və qurbana dəyən zərərlər barədə məlumatlılığı artırır. "Koqnitiv" aspekt qanunsuz cinsi hərəkətlərə imkan verən təhrif olunmuş düşüncə modellərinin tanınmasını və cinsi zorakılığın qurbanlara təsirinin başa düşülməsini əhatə edir. Müalicənin "davranış" komponenti isə cinsi xarakterli zorakı hərəkətlər haqqında yersiz fantaziyalardan qaynaqlanan cinsi ehtirasın azaldılmasını özündə ehtiva edir.[48]

*Nəticələr*: Qiymətləndirmə[49] göstərdi ki, iki il ərzində müalicə almış iştirakçılarda seksual və/və ya zorakılıq xarakterli əməllərə görə təkrar mühakimə olunma halları müalicə almayan şəxslərə nisbətən statistik baxımdan daha aşağı səviyyədə idi. Ən yüksək təsir orta risk səviyyəli cinayətkarlarda müşahidə olunurdu. İştirakçılar öz cinayətlərini və qurbanlara təsirlərini daha yaxşı başa düşdüklərini və gələcək üçün alternativ adaptasiya strategiyalarını öyrəndiklərini bildirirdilər. Beləliklə, nəticələr əsas SOTP proqramının yüksək riskli cinayətkarların müalicəsi üçün effektiv olmadığını müəyyənləşdirdi.[50]

*Dərslər:* Daha uzun müddətli qrup məşğələlərində iştirak edən iştirakçılar residivliyin qarşısının alınmasında daha səriştəli idilər. Proqrama başlamazdan əvvəl inkaretmə probleminin həlli proqramın effektivliyini artıra bilər. Cəmiyyətlə əlaqəli sonrakı dəstək proqramları məhkumlar üçün həbsxanadan çıxdıqdan sonra faydalı olacaq və onları cəmiyyətə inteqrasiya edəcəkdir.

---

48. Beech və başqaları (1998), Həbsxanalarda cinsi xarakterli cinayət törətmiş şəxslər üçün müalicə proqramının qiymətləndirilməsi. STEP qrupu tərəfindən Daxili İşlər Nazirliyi üçün hesabat, Baş idarə, London, Birləşmiş Krallıq (Noyabr 1998).
49. Friendship C., Mann R. E. və Beech A. R. (2003), "Evaluation of a national prison-based treatment programme for sexual offenders in England and Wales", Journal of Interpersonal Violence, İyul 2003, cild 18, № 7, s. 744-59.
50. Birləşmiş Krallığın Ədliyyə Nazirliyi2010), sitat edilib (qeyd 35)

*Yanaşma zorakılığın qarşısının alınmasında necə effektivdir:* Fərdi səviyyədə, müalicə cinsi zorakılıq üçün bəhanələrin sayını azaltmaq və təhrif olunmuş düşüncəyə meydan oxumaqla, ayrı-ayrı fərdlərdə zorakılığa şərait yaradan amilləri aradan qaldırır. Müalicə qurbanlara qarşı empatiya hissini artırmağı və alternativ uyğunlaşma strategiyalarını öyrətməyi hədəfləyir.

İctimai səviyyədə, müalicə şəxslərin sosial vərdişlərini yaxşılaşdırmaq və narahatlığını azaltmaq məqsədi daşıyır ki, bu da onların cəmiyyətə qayıtdıqdan sonra həmyaşıd qruplarda, ailələrdə və ya iş yerində münasibətlərini yaxşılaşdırmağa kömək edə biləcək.

# Nəticə

Məişət zorakılığı və cinsi xarakterli cinayət törətmiş şəxslər üçün müalicə proqramları qadınlara qarşı gender əsaslı zorakılığa qarşı təkmilləşdirilmiş hüquqi, sosial, tibbi və ictimai cavab tədbirlərinin həyata keçirilməsində müsbət rol oynaya bilər.[51] Bu proqramlar "panaseya" deyil, lakin məişət və cinsi xarakterli zorakılığın azaldılması üçün lazımlı davranış dəyişikliyinə səbəb ola bilər. Effektiv olmaq üçün onlar müxtəlif səviyyələrdə – sosial, təşkilati, ictimai və fərdi olaraq zorakılığa aparan yolları aradan qaldırmağa çalışan koordinasiyalı qurumlarası müdaxilənin bir hissəsi olmalıdır. Qanunpozucuları üçün həm könüllü, həm də məhkəmə qərarı əsasında həyata keçirilən proqramlara ehtiyac vardır və hər ikisi üçün minimum standartlar tətbiq olunmalıdır.[52] İstanbul Konvensiyasının 16-cı maddəsində nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsini təmin edə biləcək bir sıra yaxşı hazırlanmış proqramlar mövcuddur.

---

51. Dobash R.P və başqaları (1999), "A research evaluation of British programs for violent men", Journal of Social Policy, Aprel 1999, cild 28, iş 02, s. 205-33.
52. Kelly L. (2008), istinad olunan mənbə, s. 19. (qeyd 16)

# Zorakılıq törətmiş şəxslər üçün proqramların siyahısı

İstanbul Konvensiyasının 16-cı maddəsi iştirakçı dövlətlərin məişət zorakılığı və cinsi xarakterli cinayət törətmiş şəxslər üçün yeni müalicə proqramları yaratması və ya mövcud müalicə proqramlarının dəstəklənməsi üçün qanuni bir öhdəlik yaradır.

Aşağıda göstərilən siyahı dövlət qurumları və ya könüllü sektor tərəfindən həyata keçirilməsindən asılı olmayaraq bu cür tədbirlərin tərtibatında yardımçı ola bilər.

**Məişət zorakılığı törətmiş şəxslər üçün proqramın planlaşdırıldığını yoxlayın...**

- ❑ Cəmiyyət səviyyəsində hərtərəfli profilaktika strategiyasının bir hissəsi kimi hazırlanmışdır.
- ❑ Zorakılığa səbəb ola biləcək mürəkkəbliyi və fərqli yolları və ictimai, təşkilati, icma və fərdi səviyyədə cinayət amillərinin necə pozula biləcəyini qəbul edən ekoloji model kimi nəzəri əsaslardan istifadə edir.
- ❑ Qadına qarşı zorakılığın aydın və hərtərəfli izahı ilə işləyir və qadınlara (və uşaqlara) qarşı zorakılığın qəbuledilməz olduğu və qanunpozucularının şiddətli davranışlarına görə məsuliyyət daşıdıqları barədə açıq prinsipə əməl edir.
- ❑ Qanunpozucularının zorakılıq tətbiqetmələrinin öz seçimləri olduğunu qəbul edərək dəyişməsinə kömək edir və onlara hörmətlə yanaşmaqla bərabər törədilmiş zorakılığa görə özünə haqq qazandırma, inkar etmə və günahı başqalarının üzərinə qoymanı təkzib edir.

- Hal-hazırda mövcud olan ən qabaqcıl təcrübə qaydalarına əsaslanan bir sıra minimum standartlarla işləyir.
- Qanunpozucularının qadın tərəf müqabillərini bütün mərhələlərdə müdaxilənin planlaşdırılması və icrasının mərkəzində yerləşdirir.
- Qurbanların təhlükəsizliyini və onların hüquqlarına hörməti üstün tutur.
- Qadın tərəf müqabilinin (və övladlarının) təhlükəsizliyini təmin etmək və qanunpozucusunun münasibətlərində və zorakı davranışlarında potensial dəyişikliklər barədə vacib məlumat vermək üçün qadınlara dəstək xidmətini birləşdirir və ya birbaşa əlaqələndirir.
- Həm qanunpozucuları ilə bilavasitə işdə, həm də digər qurumlarla daha geniş qarşılıqlı fəaliyyət çərçivəsində zorakı münasibətlər şəraitində yaşayan uşaqlara xüsusi yanaşmanı prioritet olaraq özündə ehtiva edir.
- Giriş mərhələsində və eləcə də qanunpozucusunun davranışının risk səviyyəsindəki mümkün dəyişiklik aşkar olunan hər bir an sistemli risk qiymətləndirməsi və idarəetmə prosesini həyata keçirmək üçün müəyyən prosedurlara əməl edir.
- Qabaqcıl təcrübələrlə mübadilə, birgə təlim təklifi və məlumatlılığı artırmaq və eləcə də mütəxəssislərə qurumlararası müraciət kanallarının yaradılması məqsədi ilə məhkəmə, hüquq-mühafizə, tibb və sosial sahələri əhatə edən qurumlararası kontekstdə hazırlanmışdır.
- Minimum 2 il müddəti ərzində keçirilir.
- İnsan və maliyyə qaynaqları baxımdan uzunmüddətli öhdəlikləri mövcuddur.
- Aqressiv davranış modellərinin dəyişdirilməsi məqsədilə qanunpozucularının münasibətlərdə güc və nəzarət tətbiq etməsi ilə əlaqəli mövzuları əhatə edən xüsusi bir tədris proqramı hazırlanmışdır.
- Qanunpozucularının fiziki və cinsi zorakılıq da daxil olmaqla istifadə edə biləcəyi hər cür sui-istifadəni nəzərdən keçirir.
- Mütəxəssislər üçün yüksək səviyyəli ixtisaslaşma və təlim səviyyəsini təmin edir.
- İştirakçıların xüsusiyyətləri nəzərə alınmaqla hazırlanmışdır, qrupdakı mədəni və sosial müxtəlifliyi nəzərə alır.
- Proqrama fərqli qoşulma yollarını (könüllü və ya məcburi) və iştirak üçün fərqli motivləri nəzərə alaraq müxtəlif qanunpozucularının qruplarına yönəlmiş tədbirlər təklif edir.

- ❑ Proqramda maksimum iştirak müddətinin qorunması və tamamlanması üçün tədbirlər nəzərdə tutur.
- ❑ Həm proseslərə, həm də nəticələrə nəzarət edir, onları sənədləşdirir və qiymətləndirir.
- ❑ Şəxsin zorakı davranışını dayandırmaqla yanaşı, qadın tərəf müqabilləri üçün müsbət nəticələri daxil etmək məqsədilə daha geniş "müvəffəqiyyət" yanaşması ilə işləyir.
- ❑ Motivasiya amillərinin proqramda iştirakın dayandırılması, ləğvi və ya tamamlanmasına təsirinə xüsusi diqqət yetirməklə həm könüllü, həm də məcburi formada təklif olunur.

**Cinsi xarakterli cinayət törətmiş şəxslər üçün müalicə proqramının planlaşdırıldığını yoxlayın ...**

- ❑ Hal-hazırda mövcud olan ən qabaqcıl təcrübə qaydalarına əsaslanan bir sıra minimum standartlarla işləyir.
- ❑ Qurbanların təhlükəsizliyini və onların hüquqlarına hörməti üstün tutur.
- ❑ Qurbanın təhlükəsizliyi müdaxilənin planlaşdırılması və tətbiqinin bütün mərhələlərində ən vacib amildir.
- ❑ Qanunpozucusunun münasibətinin və davranışının dəyişməsi haqqında qurbanlara tələb etdikləri və ya istədikləri məlumatların verilməsini təmin etmək üçün qurbana dəstək proqramı ilə birbaşa əlaqəlidir.
- ❑ İştirakçıların xüsusiyyətləri nəzərə alınmaqla tərtib edilmişdir və proqrama müxtəlif yollarla qoşulan və iştirak etmək üçün fərqli motivlərə malik fərqli qanunpozucusu qruplarına yönəlmiş tədbirlər təklif edir.
- ❑ Həm könüllü, həm də məcburi əsasda təklif olunmaqla yanaşı, motivasiya amillərinin proqramda iştirakın dayandırılması, ləğvi və ya tamamlanmasına təsirinə xüsusi diqqət yetirilir.
- ❑ Keçirilmiş disfunksional bağlılıq və seksual/fiziki/emosional zorakılığın inkişafı nəticəsində yaranmış şiddət meylliyini aradan qaldırır (keçmişdə); cinsi zorakı davranışın dəstəklənməsi ilə əlaqəli amilləri aradan qaldırır (hal-hazırda); təkrar cinayət törətmək ehtimalının aradan qaldırılması bacarıqlarını inkişaf etdirir (gələcəkdə).
- ❑ Şəxsdə səmimiyyətin, zorakılıq tətbiq etməmək motivasiyasının, habelə zorakılıq və cinayət törətmədən həyat sürmək üçün zəruri bacarıqların inkişaf etdirilməsinə yönəlmişdir.

- ❑ Kriminoqen və şəxsiyyət tələbatlarına uyğunlaşdırılan müalicələrdən, habelə cinayət törətmiş şəxslərin müalicədəki intellektual və emosional qabiliyyətlərindən istifadə edir.
- ❑ Müalicə və qiymətləndirmənin müxtəlif aspektlərinə uyğun mühit, qrup terapiyası və fərdi terapiya kombinasiyalarından istifadə edir.

# Əsas mənbələr

**Avropa Şurası mənbələri:**

*Avropa Şurası (2008), Qadınlara qarşı zorakılıqla mübarizə: dəstək xidmətləri üçün minimum standartlar, Avropa Şurası, Strasburq*

Qadına qarşı zorakılığın qarşısının alınmasında kişilərin rolu barədə araşdırmalar və nəşrlər[53]

Pozitiv valideynlik haqqında nəşrlər və digər mənbələr[54]

**Dafna II Məişət Zorakılığı Törətmiş Şəxslərlə İş Layihəsi[55]**

Əsas məqsədi beynəlxalq səviyyədə qəbul edilmiş keyfiyyət standartlarına uyğun olaraq qanunpozucuları ilə hesabatlı və koordinasiyalı işi təşviq etmək yolu ilə qadın və uşaqların məişət zorakılığından təhlükəsizliyini artırmaq olan Məişət Zorakılığı Törətmiş Şəxslərlə İş üzrə Avropa Koordinasiya Mərkəzi 2009-cu ildə Avropa təşkilatlarından və fərdi şəxslərdən ibarət açıq bir demokratik şəbəkə olaraq qurulmuşdur. Şəbəkə üzvləri üçün zorakılığın qarşısının alınması gender bərabərliyi ilə dərindən bağlıdır. Qeyd olunan layihə məişət zorakılığı törətmiş kişilərlə işləyən proqram standartlarının tərtib edilməsi üçün elmi cəhətdən əsaslandırılmış təlimatlar təklif edir.

53. http://www.coe.int/t/dghl/standardsetting/convention-violence/documentation_studies_publications_en.asp
54. http://www.coe.int/t/dg3/children/corporalpunishment/positive%20parenting/default_en.asp
55. http://archive.work-with-perpetrators.eu/en/index.php

### Dafna III layihəsinin təsiri

2013-cü ilin yanvar ayında Dafna III "Zorakılıq törətmiş şəxslərlə iş" Layihəsi[56] qurbanların təhlükəsizliyinə töhfə verdiklərini müəyyənləşdirmək məqsədilə Avropa qanunpozucuları ilə mübarizə proqramlarını qiymətləndirmək üçün ardıcıl çoxtərəfdaşlı bir layihə başladı.

### Birləşmiş Krallığın Respect proqramı

Respect[57] proqramı Milli Mütəxəssilər Şəbəkəsinin (NPN) maraqlarına uyğun olaraq məişət zorakılığı sahəsində işləyən təcrübəçi rəhbər mütəxəssis qrupu tərəfindən aşağıdakı məqsədlərlə yaradılmışdır: Birləşmiş Krallıqda zorakılıq törətmiş şəxslər üçün proqram və onunla əlaqədar dəstək xidmətlərini təşviq etmək.

### Cinsi Xarakterli Cinayət Törətmiş Şəxslərin Müalicəsi üzrə Beynəlxalq Assosasiya (IATSO)

IATSO[58] proqramı rəsmi olaraq 24 mart 1998-ci ildə Venesuelanın Karakas şəhərində Cinsi Xarakterli Cinayət Törətmiş Şəxslərin Müalicəsi üzrə 5-ci Beynəlxalq Konfrans zamanı yaradıldı. Bu, cinsi xarakterli cinayət törətmiş şəxslərin müalicəsi və tədqiqatını təşviq edən beynəlxalq qeyri-kommersiya təşkilatıdır.

### Cinsi Xarakterli Cinayət Törətmiş Şəxslərin Müalicəsi

Cinsi Xarakterli Cinayət Törətmiş Şəxslərin Müalicəsi[59] cinsi zorakılığı araşdıran, bütün alim və təcrübəçilər üçün açıq olan beynəlxalq səviyyədə resenziya edilmiş bir jurnaldır.

---

56. http://www.wave-network.org/content/project-impact-evaluation-european-perpetrator-programmes
57. http://www.respect.uk.net
58. http://www.iatso.org
59. http://www.sexual-offender-treatment.org/sot-2-2013.html

# İstifadə olunmuş ədəbiyyat


Akoensi T. və başqaları (2012), "Domestic violence perpetrator programs in Europe, Part II: A systematic review of the state of evidence", International Journal of Offender Therapy and Comparative Criminology, cild. 57 (10), s. 1206-25

Alderson S., Westmarland N. və Kelly L. (2013), "The need for accountability to, and support for, children of men on domestic violence perpetrator programmes", Child Abuse Review 2013, cild 22, iş 3, s. 182-193 (7 Noyabr 2012-ci ildə Uili Onlayn Kitabxanasında onlayn surətdə nəşr edilmişdir).

Beech və başqaları (1998), Həbsxanalarda cinsi xarakterli cinayət törətmiş şəxslər üçün müalicə proqramının qiymətləndirilməsi. STEP qrupu tərəfindən Daxili İşlər Nazirliyi üçün hesabat, Baş idarə, London, Birləşmiş Krallıq (Noyabr 1998)

Cadski O. və başqaları (1996), "Attrition from a male batterer treatment program: client-treatment congruence and lifestyle instability", Violence and Victims Spring, Yaz 1996, cild 11, № 1, s. 51-64

Avropa Şurası (2014), Qadınların zorakılığa qarşı qorunmasına dair Tövsiyə Rec (2002) 5-in icrasına dair monitorinqin 4-cü turunun nəticələrinin analitik tədqiqi, Avropa Şurası, Strasburq

Avropa Şurası (2008), Qadınlara qarşı zorakılıqla mübarizə: dəstək xidmətləri üçün minimum standartlar, Avropa Şurası, Strasburq

Dennis J.A. və başqaları (2012), "Psychological interventions for adults who have sexually offended or are at risk of offending", Cochrane Database of Systematic Reviews 2012, iş 12, John Wiley & Sons Ltd.

Dobash R.P və başqaları (1999), "A research evaluation of British programs for violent men", Journal of Social Policy, Aprel 1999, cild 28, iş 02, s. 205-33

Dobash R.E., Dobash R.P (2000), "Evaluating criminal justice interventions for domestic violence", Crime and Delinquency, Aprel 2000, cild 46, № 2, s. 252-70

Echeburúa E., Fernández-Montalvo J. və Amor P.J. (2006), "Psychological treatment of men convicted of gender violence: a pilot study in Spanish prisons", International Journal of Offender Therapy and Comparative Criminology, Sage nəşriyyatı, Fevral 2006, cild 50 (1), s. 67

Feder L., Wilson D.B., Austin S. (2008), "Court-mandated interventions for individuals convicted of domestic violence", Campbell Systematic Reviews, Kempbel Kitabxanası 2008, cild 4, iş 12

Friendship C., Mann R. E. və Beech A. R. (2003), "Evaluation of a national prison-based treatment programme for sexual offenders in England and Wales", Journal of Interpersonal Violence, İyul 2003, cild 18, № 7, s. 744-59

Geldschläger H., Ginés O., Nax D. & Ponce A. (2014), Zorakılıq törətmiş şəxslər üçün Avropa proqramlarının nəticələrinin qiymətləndirilməsi: İcmal, Dafna III Layihəsinin təsiri haqqında nəşr olunmamış sənəd: Zorakılıq törətmiş şəxslər üçün Avropa proqramlarının qiymətləndirilməsi/

Gondolf E. (2002), "Batterer intervention system: issues, outcomes and recommendations", SAGE nəşriyyatı, Thousand Oaks, CA/

Hagemann-White C. və başqaları (2010), Qadınlara qarşı, uşaqlara qarşı və cinsi xarakterli zorakılığa təsir edən amillər – Çox səviyyəli interaktiv model (Avropa Komissiyası üçün gender əsaslı zorakılıq və uşaqlara qarşı zorakılığa dair milli qanunvericiliyin standartlaşdırılması imkanlarını və ehtiyaclarını dəyərləndirmək üçün texniki-iqtisadi işin bir hissəsi; JLS / 2009 / D4 / 018), Avropa Birliyinin Nəşrlər Bürosu, Lüksemburq.

Heise L. (1998), "Violence against women: an integrated, ecological framework", Violence against Women 1998, cild 4, № 3, s. 262

Hester M. və başqaları (2006), "Məişət zorakılığı törətmiş şəxslər: Erkən müdaxilə zərurətinin müəyyənləşdirilməsi", Northern Rock Fondu və Baş Ofis, London, Birləşmiş Krallıq

Kelly L. (2008), "Qadınlara qarşı zorakılıqla mübarizə: dəstək xidmətləri üçün minimum standartlar", Avropa Şurası, Strasburq

Lila M. və başqaları (2013), "Predicting success indicators of an intervention programme for convicted intimate-partner violence offenders: The Contexto programme", The European Journal of Psychology Applied to Legal Context 5(1), s. 73-95

Lila M., Gracia E., Murguia S. (2013), “Psychological adjustment and victim-blaming among intimate partner violence offenders: The role of social support and stressful life events”, The European Journal of Psychology Applied to Legal Context 2013, cild 5, № 2, s. 147-53

Mayer R. (2004), To BIP, or not to BIP? Munro T. tərəfindən təqdim edilmişdir (2011), Məişət Zorakılığı haqqında 5 saylı Hesabat: Şərti Xəbərdarlıq və kişi Qanunpozucuları üçün Proqramlar. Hesabat Amerika-Britaniya Fulbrayt Komissiyası tərəfindən verilən 2010-2011 Polis Tədqiqatları üçün Fulbrayt Təqaüd Proqramı çərçivəsində hazırlanmışdır.

Birləşmiş Krallığın Ədliyyə Nazirliyi (2010), Cinsi xarakterli cinayət törətmiş şəxslərə qarşı nə effektivdir?, Cinayətkarlığın idarə olunması üzrə Milli Xidmət, Birləşmiş Krallıq

Pence E. və Paymar M. (1993), “Döyən kişilər üçün maarifləndirmə qrupları”. Dulut modeli, Springer nəşriyyatı, Nyu York

Perkins D. və başqaları (1998), “Yüksək Təhlükəsizlik Rejimli Psixiatriya Xidmətləri Komissiyası (HSPSCB) üçün cinsi xarakterli cinayət törətmiş şəxlərlə mübarizə proqramlarının icmalı”

Rajagopalan V., Price P. və Donaghy P. (2008), Qadın və uşaqların təhlükəsizliyinin artırılması: Şərqi Londonda Məişət Zorakılığının Qarşısının Alınması Layihəsinin qiymətləndirilməsi, DVIP, London

Saunders D.G. (2008), “Group interventions for men who batter: a summary of program descriptions and research”, Violence and Victims 2008, cild 23, № 2, s. 156-72

Schmucker M. və Losel F. (2008), “Does sexual offender treatment work? A systematic review of outcome evaluations”, Psicothema 2008, cild 20, № 1, s. 10-19

Stanley N. və başqaları (2011), Dəyişmək üçün güc: Məişət zorakılığı törətmiş şəxslər üçün yeni təşəbbüsün dəyərləndirmə hesabatı, Mərkəzi Lancaşir Universiteti, Preston

Westmarland N., Kelly L. vetChalder-Mills J. (2010), “Mhalder-Mills J. (2010), veti, Prestonər üçün yeni təşəbbüsün dəyərləndirməə hesabatımətlən” (Brifinq qeydi 1), Respect proqramı, London, s. 15. http://www.respect.uk.net/data/files/respect_research_briefing_note_1_what_counts_as_success.pdf

### 16-cı maddə - Profilaktik müdaxilələr və müalicə proqramları

1. Tərəflər, gələcəkdə zorakılığın qarşısını almaq və zorakı davranış formalarını dəyişmək baxımından məişət zorakılığı törədənlərə şəxslərarası münasibətlərdə qeyri-zorakı davranş aşılamağa yönəlmiş proqramlar hazırlamaq və ya bu cür proqramların hazırlanmasına kömək etmək üçün zəruri qanunvericilik tədbirləri və ya digər tədbirlər görürlər.

2. Tərəflər zorakılıq əməlləri, xüsusilə də cinsi zəmində cinayət əməlləri törətmiş şəxslərin təkrar cinayət törətmələrinin qarşısını almağa yönəlmiş proqramlar işləyib hazrlamaq və ya onların hazrlanmasına dəstək olmaq üçün zəruri qanunvericilik tədbirləri və ya digər tədbirlər görurlər.

3. 1-ci və 2-ci bəndlərdə göstərilən tədbirləri həyata kecirərkən Tərəflər zərərçəkmişlərin təhlükəsizliyinin, onlara yardımın və onların insan hüquqlarının diqqət mərkəzində dayanmasını və tələb olunarsa, bu proqramların zərərcəkmişlər üçün peşəkar yardım xidmətləri ilə sıx əlaqədə hazırlanıb həyata kecirilməsini təmin edirlər.

AZE

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, təşkilat 47 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

**www.coe.int**

Avropa İttifaqının üzv dövlətləri bilik və bacarıqlarını, resurslarını və müqəddaratlarını bir araya gətirməyə qərar veriblər. Mədəni müxtəlifliyi, tolerantlığı və fərdi azadlıqları qoruyaraq birlikdə sabitlik zonasına, demokratiyaya və dayanıqlı inkişafa nail olublar. Avropa İttifaqı öz sərhədlərindən kənarda yerləşən digər ölkə və xalqlarla öz nailiyyətlərini və dəyərlərini bölüşməyə qərarlıdır.

**http://europa.eu**

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Bu tərcümə Avropa İttifaqının və Avropa Şurasının birgə maliyyələşdirdiyi "Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması" layihəsi çərçivəsində hazırlanıb. Burada ifadə olunan fikirlər hər iki tərəfin rəsmi mövqeyini əks etdirməyə bilər.